
ادخلوها بسلام آمنين

Bağışlayan və
Mehriban Allahın adı ilə

| | | |
|---|---|---|
| سرشناسه | : | خدامیان آرانی، مهدی، ۱۳۵۳ - <br> Khuddamiyan Arani, Mehdi |
| عنوان قراردادی | : | الصحیح فی فضل الزیارةالرضویة . ترکی |
| عنوان و نام پدیدآور | : | İmam Rzanın (ə) ziyarətinin fəziləti ən mötəbər hədislərdə/ Məhdi Xuddamiyan Arani; Tərcüməçi Məhəmməd Təqəddumi Sabiri; Azərbaycan dilinə tərcümə etdi Emin Hacıyev. |
| مشخصات نشر | : | Mashhad: Astan Quds Razavi, Islamic Research Foundation, 2017= 1396. |
| مشخصات ظاهری | : | ۸۶ ص. |
| شابک | : | 978-600-06-0179-9 |
| وضعیت فهرست نویسی | : | فیپا |
| یادداشت | : | .ترکی آذربایجانی |
| یادداشت | : | کتاب حاضر از متن فارسی کتاب تحت عنوان " روایات صحیحه فضیلت زیارت رضوی" به ترکی .آذری برگردانده شده است |
| عنوان به زبان دیگر | : | روایات صحیحه فضیلت زیارت رضوی: |
| موضوع | : | علی‌بن موسی (ع)، امام هشتم، ۱۵۳؟ - ۲۰۳ق. -- آرامگاه -- زیارت |
| موضوع | : | Ali ibn Musa, Imam VIII -- Tomb -- Pilgrimage |
| موضوع | : | علی‌بن موسی (ع)، امام هشتم، ۱۵۳؟ - ۲۰۳ق. -- آرامگاه -- زیارت -- احادیث |
| موضوع | : | Ali ibn Musa, Imam VIII -- Tomb -- Pilgrimage -- Hadiths |
| موضوع | : | زیارت و زائران -- آداب و رسوم |
| موضوع | : | Pilgrims and pilgrimages -- Manners and customs |
| شناسه افزوده | : | حاجی‌زاده، امین، مترجم |
| شناسه افزوده | : | Emin Haciyev |
| شناسه افزوده | : | تقدمی صابری، محمد، ۱۳۵۲ -، مترجم |
| شناسه افزوده | : | Taqaddumi Saberi, Muhammad |
| شناسه افزوده | : | آستان قدس رضوی. بنیاد پژوهشهای اسلامی |
| شناسه افزوده | : | Astan Quds Razavi. Islamic Research Foundation |
| رده بندی کنگره | : | BP۲۶۴/۲/خ۴ص۳۰۴۵ ۱۳۹۶ |
| رده بندی دیویی | : | ۲۹۷/۷۶۷۲ |
| شماره کتابشناسی ملی | : | ۴۷۸۴۵۱۴ |



**İmam Rzanın (ə) ziyarətinin fəziləti**

**Müəllif: Məhdi Xuddamiyan Arani**

**Tərcüməçi: Emin Haciyev**

**Sifarişçi: Astanı Qüdsi Rəzəvinin Xarici Zəvvarlar Müdirliyi**

**Nəşr edən: Astanı Qüdsi Rəzəvinin təhqiqat mərkəzi**

**Birinci çap: 2017 m. / 1396 ş.** | **dizayn: Əmin Kövsəri**

**Tirajı: 1000** | **Ünvan: İran, Məşhəd, imam Rzanın müqəddəs hərəmi, Xarici Zəvvarlar idarəsi**



**S.B: 91375-3131**

**Telefon: +98-51-32259090, +98-51-32002425**

**Faks: +98-51-32219900**

**Email: iro@imamrezashrine.com**

**Sayt: www.imamrezashrine.aqr.ir**

# MÜNDƏRİCAT


6 Qeyd
10 Naşirdən
13 Giriş
19 Ön söz
39 İmam Rzanın (ə) ziyarətinin fəziləti barəsində
41 Bəzəntinin birinci səhih hədisi
53 Bəzəntinin ikinci səhih hədisi
61 İbni Əbi Nəcranın səhih hədisi
64 İbni Məhziyarın birinci səhih hədisi
66 Əli bin Əsbatın səhih hədisi
69 Həsən Vəşşanın səhih hədisi
79 Əbduləzim Həsənin səhih hədisi
80 Hərəvinin birinci səhih hədisi
83 Hərəvinin ikinci səhih hədisi
89 İbni Məhziyarın ikinci səhih hədisi
90 Davud Cəfərinin səhih hədisi
93 Yasir Xadimin səhih hədisi
94 İbni Fəzzalın müvəssəq hədisi

# Qeyd

«عن عبد السَّلَامِ الْهَرَوِيّ، عَنِ الرِّضَا، قَالَ: «رَحِمَ اللهُ عَبْدًا أَحْيَا أَمْرَنَا»، قُلْتُ: كَيْفَ يُحْيِي أَمْرَكُمْ ؟ قَالَ: «يَتَعَلَّمُ عُلُومَنَا وَيُعَلِّمُهَا النَّاسَ، فَإِنَّ النَّاسَ لَوْ عَلِمُوا مَحَاسِنَ كَلَامِنَا لَاتَّبَعُونَا»».

(عيون اخبار الرضا، ج١، ص ٣٠٧)

Əbdussalam ibn Saleh Hərəvi belə deyir: İmam Rzanın (ə) qulluğunda idim, onun belə buyurduğunu eşitdim: Allah Bizim əmrimizi (imaməti) dirçəldənə öz rəhmətini yağdırsın. Soruşdum ki, sizin əmriniz necə dirçəlir? İmam isə buyurdu: Bizim elmlərimizi öyrənib başqalarına öyrətməklə, çünki əgər insanlar kəlamlarımızın nə kimi gözəllikləri olduğunu bilsələr, bizə tabe olarlar.

**(Uyun əxbar ər-Riza (ə) c. 1, səh. 307)**

Allah-taalanın böyük nemətlərindən biri də məsum Rəhbərləri (ə) bizim aramızda yerləşdirməsidir. Bizə nümunə olaraq onların həyat tərzi, Allaha qarşı ibadətləri və

öyüd-nəsihətləri bizi əbədi səadətə qovuşdurur. Məşhəd torpağı peyğəmbər övladının dəfn olunduğu, habelə cənnətin bir parçasıdır. Bu torpaqda imamət səmasının səkkizinci ulduzunun məzarı yerləşir. Hər il İmama məftun olan milyonlarla İranlı və xarici ziyarətçilər bu məkana axışaraq susuz ruhlarını Əhli-Beytin zülal maarifi ilə sirab edirlər.

Müqəddəs Rəzəvi Astanasının xidmət-çilərinin hər biri İmam Rza (ə) zəvvarlarına ziyarətdən daha çox faydalana bilmələri məqsədilə onların rahatlıq və aramlığı üçün xidmət göstərməkdədirlər. "Müqəddəs Rəzəvi Astanasının Xarici Zəvvarlar İdarəsi"də öz növbəsindəəlindən gələn bütün xidmətlərini İmam Rza (ə) ziyarətçilərinə göstərir, Əhli-Beytin (ə) xüsusən İmam Rzanın (ə) həyatındakı davranış vəəxlaq mədəniyyətini bütün rzasevərlərə və şiələrə aşılayır. Müdiriyyətin göstərdiyi təşəbbüs xarici zəvvarların bəsirəti və mənəvi inkişafı artırmaq məqsədilə İran İslam Respublikasının Ali dini liderinin nəsihətləri, Astan Qüdsi Rəzəvinin rəhbərliyinin göstərişləri və habelə Astan Qüdsi Rəzəvinin 20 illik iş təcrübəsi İslam mədəniyyətinin yayılması üzərində qurulmuşdur.

İdarənin İmam Rza (ə) zəvvarlarına qarşı beynəlxalq sahədə göstərdiyi xidmət növləri aşağıdakılardan ibarətdir:

-Mədəni proqramların təşkil edilməsi;

-Maarifləndirici yığıncaqlar;

-Peşəkar görüşlərin baş tutması;

-Elmi konfrans və seminarların həyata keçirilməsi;

-Mədəni müsabiqələr;

-Şer gecələrinin təşkili;

-İslamı yenicə qəbul edənlərlə görüş;

-Dini ekspertlərlə görüşlər;

-Göndərilən məktubların cavablandırılması;

-Kitab və bu kimi digər mədəni məhsulların xaricə ölkələrə göndərilməsi;

-Dini məsələlərə dair sual-cavablar;

-İnternet şəbəkəsi olan "Rəzəvi talk"da dialoqların keçirilməsi;

-Müxtəlif dillərdə İslam maarifin dair ədəbiyyatların yazılması və onların tərcümə edilməsi.

Bu gün İslamın çağırışı dünyanın hər bir guşəsinə çatıb. Bu çağırış özlərindən uzaq düşmüş insanları həqiqətə doğru yenidən qaytara bilər. Hazırda haqpərəst insanların qəlbləri İslama, onun təqdim etdiyi dəyərlər və insan tərbiyəsi metoduna üz tutub artmaqdadır. Bu kitabın həqiqət axtarışına olan kimsələrə faydalı olmasını, zəvvarların və Əhli-Beyt (ə) aşiqlərinin mərifət çırağını aydınlatmasını və Allah-taalanın razılığına səbəb olmasını ümid edirik.

اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ، وَ مَتِّعْني بِهُدًى صالح لا اَسْتَبْدِلُ بِهِ، وَ طَريقَةِ حَقٍّ لا اَزيغُ عَنْها، وَنِيَّةِ رُشْدٍ لااَشُكُّ فيها، وَ عَمِّرْني ما كانَ عُمْري بِذْلَةً في طاعَتِك.

Allahım, Məhəmməd və onun Ailəsinə öz rəhmətini yağdır! Məni elə düzgün bir hidayətlə bəhrələndir ki, onu heç nə ilə dəyişməyim, məni elə haqq bir yola yönəlt ki, ondan azmayım, mənə elə bir inkişaf niyyəti nəsib elə ki, onda şəkk etməyim. Allahım, nə qədər ki, ömrüm sənin itaətində sərf olur, məni yaşat.[1]

**Astan Qüdsi Rəzəvinin xarici zəvvarlar idarəsi**



1. Səccadiyyə Səhifəsi, 1-ci dua

# Naşirdən

Aləmlərin Rəbbi olan Allahın salamı bütün bəşəriyyətin sərvəri Məhəmmədə və onun pak ailəsinə olsun.

İslam araşdırmaları qurumu təsis olduğu gündən etibarən dəyərli İslam şəriətini canlandıran kitabların çapını ön planda saxlayıb. Buna görə, öz diqqətini asan İslam ayininin davam etdirilməsində dinin ümid qaynağı olan və İslam ümmətinin zaman boyu sapmalarının qarşısını alan effektiv bir silah olan Əhli-beytin (ə) təlimlərini yaymağa yönəltmişdir.

İslam araşdırmaları qurumu İslam, həqiqət, dini qaynaqların və İslam təlimlərinin dirçəldilməsi uğrunda göstərdiyi cəhdlərə görə qurur hissi keçirir. İndi isə bəzi alim və ziyarətçilərin istəyi əsasında Məhəmməd Təqəddumi Sabiri tərəfindən tərcümə edilən hörmətli ustad Höccətülislam Mehdi Xuddamiyan Araminin qələmə aldığı «İmam Rzanın (ə) ziyarətinin fəzilə-

ti ən mötəbər hədislərdə» adlı kitabını öz gözəl oxucularına təqdim edir.

Tərcüməsi sizə təqdim olunan və orijinal dili ərəbcə olan «əs-Səhih fi fəzliz-Ziyarətir-Rəzəviyyə» kitabı Astan Qüdsi Rəzəvinin İslam araşdırmaları qurumu və Beyrutun «əl-Mürtəza» adlı mədəni müəssisəsinin birgə həmkarlığı nəticəsində keçirilən beynəlxalq Rəzəvi kitab müsabiqəsində birinci yerə layiq görülmüşdü.

Kitab imam Rzanın (ə) ziyarətinin fəzilətinə dair hədisləri nəql edən ravilərin tərcümeyi-halını tədqiq edir və rical qaynaqlarında siqə (doğru danışan) olduqları açıq-aşkar qeyd olunan ravilərin nəql etdiyi hədislər içərisindən on səhih hədislə kifayətlənir. Müəllif «əs-Səhih fi fəzliz-Ziyarətir-Rəzəviyyə» kitabında ilk olaraq səhih hədisləri qeyd edir və daha sonra təfsilatı ilə onların ravilərinin tərcümeyi-halını şərh edir və beləliklə, bu hədislərin həmməzhəbimiz olan sələflərin etimad etdiyi qaynaqlardan götürülməsini isbat edir.

Hazırda İslam araşdırmaları qurumunun öz dəyərli oxucularına təqdim etdiyi bu kitab, əslində, adıgedən kitabda raviləri «siqə» olaraq qeyd edilən hədis mətnlərindən ibarətdir.

Hörmətli müəllifin bu meydanın öndəri olduğunu söyləsək mübaliğə etmiş olmarıq,

çünki ondan əvvəl Əhli-beyt (ə) ziyarətinə dair hədisləri belə bir metodla bir araya yığaraq təshih edən kimsəni tanımırıq. Müəllifin əməyi bu sahədə gözəl bir başlanğıc hesab olunur. Belə ki, o, elm əhlinin üzünə yeni bir qapı açır.

Sonda isə Qüdrətli Allahdan İslam dini və hər cür çirkinlikdən arınaraq tamamilə pak qılınan Əhli-beyt (ə) xidmətçilərinə yardım etməsini diləyirik. Ümid edirik ki, dəyərli oxucular bu kitabın içərisindəkilərdən gözəl şəkildə faydalanacaqlar.

**İslam Araşdırmaları Qurumu**

**Məşhəd, zil-Qədə ayı: 11, hicri qəməri: 1436.**

# Giriş[1]

İmam Rzanın (ə) qəbiri elə bir əzəmət və müqəddəsliyə malikdir ki, Allah övliyalarının qəbirlərindən az bir hissəsi onun kimidir. Çünki ildə milyonlarla müsəlman Allaha yaxınlaşmaq məqsədi ilə bu qəbirin ziyarətinə gəlirlər.

Şübhəsiz, müsəlmanlar bu nurani qəbiri ziyarət etməklə öz peyğəmbərinə qarşı sevgilərini göstərirlər. Məhəmməd ibn Müəmməl belə deyir: «Mühəddislərin öndəri Əbubəkr ibn Xüzeymə, silahdaşı Əbuəli Səqəfi və öz şeyxlərinin bir qrupu ilə birgə Əli ibn Musa Rzanın Tusdakı qəbrinin ziyarətinə yola düşdük. İbn Xüzeymə o qəbirə elə hörmət göstərir, qarşısında təzim edir və kənarında ağlayırdı ki, biz heyrətlənirdik».[2] Niyə də belə olmasın, halbuki Allah öz möhkəm kitabında

1. Hörmətli müəllifin qələmə aldığı «Girişi» hazırkı kitabla uyğunlaşdırmaq məqsədi ilə kitabda qısa dəyişikliklər edilmişdir.

2. Əsqəlani, Əhməd ibn Əli (İbn Həcər), Təhzibut-Təhzib, c. 7, s. 388.

belə buyurur: "(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm".[1] Gizli deyil ki, Əhli-beyt (ə) öldükdən sonra onlara qarşı sevgi və dostluğun ən bariz əlaməti onların yolu ilə getmək və onların qəbirlərini ziyarət etməkdir.

Allah-taala imam Rzanın (ə) pak qəbrinə çoxsaylı fəzilətlər aid etmişdir. Bu qəbir həm də, ehtiyaclıların sığınacağı, bəlaya məruz qalanların isə möhkəm qalasıdır. İmam Rzanın kəramətləri kimsəyə gizli deyildir. Bəziləri üçün baş verən bu kəramətlər bu sayla məhdudlaşmır, çünki bu, elə bir xoşətirli müşkdür ki, indiyədək öz ətrini ətrafa saçmadadır. Həm yaxın, həm də uzaq buna şahiddir. Şair necə də gözəl demişdir: Kim görməklə sevincinə səbəb olacaq, Allahın kədərini azaldacaq bir qəbir görmək istəsə, onda bu qəbirin ziyarətinə gəlməlidir, elə bir qəbir ki, Allah öz elçisinin nəslindən olan seçilmiş birini orada yerləşdirmişdir.[2]

İmam Rzanın (ə) ziyarətinin mükafatına dair əlimizdə çoxsaylı hədislər var. Bir hədisdə o həzrətin ziyarəti bir milyon həcc savabı

1. Şura: 23.

2. Məclisi, Məhəmmədbaqir, Biharul-Ənvar, c. 49, s. 328; Hilli, Həsən ibn Yusuf, əl-Ədədul-Qəviyyə, s. 294; Səduq, Məhəmməd ibn Əli ibn Quləveyh, Uyunu əxbarir-Riza, c. 2, s. 281.

ilə bir tutulur. Digər bir hədisdə o həzrətin qəbrini ziyarət edən kəs Allah rəsulunu (s) ziyarət edən kəs kimi göstərilir. Üçüncü hədisə görə isə imam Rzanın (ə) qəbrini ziyarət edənə Allah rəsulunun (s) gözü önündə şəhadətə yetişən yetmiş şəhid mükafatı verilər.

Müxtəlif orijinal qaynaqlarda pərakəndə şəkildə qeyd olunan bu hədislərin səhih olmasına baxmayaraq, onların məzmununun doğru olub-olmaması barəsində sual verən kəslərə şahid oluruq!

Bildiyimiz kimi, Allah rəsulunun (s) ailəsinin mirasını qoruyub saxlamaq, onları gözəl texniki və elmi metodla tənzimləmək elmi hövzə alimlərinin diqqət etməsi vacib olan ən önəmli, zəruri işlərdən biri hesab olunur. Odur ki, gözəl xələf gözəl sələf üçün olar.

Allah-taalanın mənə bəxş etdiyi nemətlərdən biri də budur ki, mənə imam Rzanın (ə) ziyarətinin fəzilətinə dair hədisləri tədqiq etmə müvəffəqiyyətini nəsib etdi və bununla da, o hədislərin sənədindəki ravilərin şəxsiyyətini araşdıra bildim.

Qarşınızdakı bu kitab- «İmam Rzanın (ə) ziyarətinin fəziləti ön mötəbər hədislərdə» əslində kitabın tərcüməsinin qısaldılmış formasıdır. Daha dəqiq desək, «əs-Səhih fi fəzliz-Ziyarətir-Rəzəviyyə» kitabında qeyd edilən hədislərin mətnindən ibarətdir.

Qeyd edək ki, belə bir seçimin hədəfi kita-

bın faydasını ümumiləşdirərək bu hədisləri onların rical tərəfi ilə elə də maraqlanmayan daha çox oxucu kütləsinə çatdırmaq olmuşdur. Həm də, bu kimi hədislərin ümumi kütləyə təqdim edilməsinin gərəkli olduğunu düşünən Astan Qüdsi Rəzəvinin İslam təbliğat vəəlaqələrinin hörmətli rəhbərliyinin istəyi əsasında həyata keçmişdir.

Bu kitaba sadə və kiçik «ön söz» yazaraq orada Qurani-Kərim və Peyğəmbərin (s) sünnəsi baxımından ziyarətin dini olduğunu izah etməyə və daha sonra bu barədə olan səhih hədisləri qeyd etməyə çalışmışam. Bu kitabda xüsusilə, o hədisləri qeyd etmişəm ki, rical kitabları onların ravilərini açıq şəkildə «siqə (doğru danışan) adlandırıblar. Məsələn, Kəşşinin ricalı, Nəccaşinin ricalı, Tusinin ricalı, Tusinin fəhrəsti, xulasətul-Əqval, İbn Davudun ricalı kimi. Bu əsasla, bu hədislərin ravilərindən biri adıgedən kitabların birində «siqə» adlandırılmamışsa, biz həmin hədisi kitabımızda qeyd etməmişik.

Qeyd etmək lazımdır ki, kitabda araşdırdığımız on hədis «ən yüksək (əlai) səhih hədis»lər sırasına daxildir. Ən yüksək səhih hədis dedikdə, elə bir səhih hədisi nəzərdə tuturuq ki, onun ravilərinin hər birinin imami, ədalətli, eşitdiyini doğru qeyd edən olması hər bir təbəqədə məlum olsun. Belə bir hədisə

«ən yüksək səhih hədis (səhihi-əlai)» deyilir.[1] Bizə görə, imam Rzanın (ə) ziyarətinin fəzilətinə dair bu kimi ən yüksək səhih hədislər önəmli bir məsələ hesab olunur. Çünki imam Rzanın (ə) fəzilətləri çoxdur və onun ziyarətinin fəziləti də onlardan biridir.

Xatırladaq ki, iki yerdə mövzu iləəlaqədar əhəmiyyətə görə iki müsəhhəh hədis qeyd etmiş və onların qəbul edilmə səbəblərini də izah etmişik. Bu iki hədis belədir: Əbdüləzim Həsəninin müsəhhəh hədisi və Hərəvinin müsəhhəh hədisi.

İlahi, bizə bu kiçik işi həyata keçirməkdə müvəffəqiyyət nəsib etdiyinə görə Sənə həmd olsun. Ola bilsin ki, pak qəlblə Allahın hüzuruna gələnlər istisna olmaqla, heç bir malın və övladın fayda verməyəcəyi bir gündə onu bizdən qəbul edəsən.

Mənim ağam və sərvərim, ey Əli ibn Musa Ər-Rza! Bu kiçik əməyimi sənə təqdim edirəm, o ümidlə ki, onu məndən qəbul edəsən. Səndən təkcə qiyamət günü şəfaətini diləyirəm, elə bir gün ki, hər bir qrupu öz imamının adi ilə çağıracaqlar. Elə isə o gündə sən mənim imam və ümid qaynağımsan.

**Mehdi Xuddamiyan Arani**
**Qum. Rəbiüləvvəl: 17, 1430.**

1. . Daha çox məlumat üçün bax: Əli, Təuvzihul-Məqal, s. 245; Maməqani, Abdullah, Miqyasul-Hidayə, c. 10, s. 155.



# Ön söz

Həzrət Peyğəmbərin (s) qəbrinin və məsum imamların qəbirlərinin ziyarət edilməsi şəriətin müsəlmanları təşviq etdiyi və başqa İslam məzhəblərinin dini mətnlərinin təsdiqlədiyi müstəhəb əməllərdən biri hesab olunur.

Həzrət Peyğəmbərin (s) dövründəki səhabələr və onlardan sonra isə tabiinlər belə bir ayini həyata keçirirdilər. Tabiinlərin zamanından indiyədək də bu ayin icra edilməkdədir. Bəzilərinə görə, ziyarət ziyarətçi ilə ziyarət edilən adamın içərisində dəfn edildiyi qəbir arasında əlaqədir. Ancaq həqiqət bunun əksinədir, yəni ziyarət ziyarətçi ilə dəfn edilən yüksək şəxsiyyət arasındakı mənəvi əlaqədir və belə bir əlaqəni mahiyyəti isə eşq hesab olunur. Bu eşq həm şirin, həm də ziyarətçilərin ziyarətinin ilk şərtidir. Ziyarət həm də elə bir şövqlü ayindir ki, bir qrup insanlar onu həyata keçirməklə Allah dostları ilə olan dərin əlaqələrini üzə çıxardır və beləliklə, mənəvi rəhbərləri ilə olan dostcasına, aşiqanə rabitələrini daha da möhkəmlədir-

lər. Bu ayin Allaha yaxınlaşmaq niyyəti ilə həyata keçirilir. Buna görə də, mənəvi bir hal nümayiş etdirərək ziyarətçinin mənəviyyatını artırır.

Ziyarət və dua mətnlərinin mütaliə edilməsi, onların dini və mənəvi məzmunları üzərində düşünmək insana bu gerçəyi aşılayır ki, ziyarətin hədəfi daşlara və ya dəmir millərə sarılmaq deyil, əksinə, Allahın sevincinə səbəb olan dostların yolunda addımlamaqdı.

İndi isə gəlin, üç fəsildə Quran və sünnə baxımından ziyarətin qanuni, dini olmasına dair dəlilləri və habelə onun fəzilətini qısa şəkildə bəyan edək.

## Birinci fəsil: Quranda ziyarət

"Ziyarət" Qurani-Kərimin bir neçə ayəsinin məzmununda qeyd olunub. Biz burada onlardan ikisini qeyd etməklə kifayətlənirik:

1-ci ayə: "O zaman (Tərsusdakı möminlər və kafirlər) öz aralarında onların (əshabi-kəhfin) işi barəsində mübahisə edirlər. Nəhayət, onlar dedilər: "Onların üstündə bir bina tikin. Rəbbi (onların öldüyünü, yaxud yenidən yuxuya getdiyini və nəyə etiqad etdiyini) daha yaxşı bilir!" Onların (əshabi-kəhfin) haqqındakı mübahisədə qalib gələnlər isə: "Onların (məzarı) üstündə (Allaha ibadət etmək məqsədilə) bir məscid

tikəcəyik!" – dedilər".[1]

Bu ayə əshabi-kəhf və insanların onların - öldükdən sonra - üzərində mübahisəsi barəsindədir. Əshabi-kəhfin haqqındakı mübahisədə qalib gələnlər mömin idilər, çünki əshabi-kəhf mövzusu aydınlaşan kimi qiyamət gününə inananlar qalib gəldilər. Bu təfsir ən məqbul təfsir hesab olunur. Başqa bir təfsirə görə, əshabi-kəhfin haqqındakı mübahisədə qalib gələnlər padşahın dostları idilər. Bəzi təfsir alimlərinin bildirdiyi kimi, həmin padşah mömin və imanlı şəxsin biri idi.[2]

Deməli, məscid insanların ona üz tutması üçün inşa edilir və buradan aydın olur ki, əshabi-kəhfin qəbirləri ziyarətgaha çevrilmişdi. Bu, o zaman baş verdi ki, onların qəbirlərinin üzərində bir məscid inşa edildi və möminlər isə hər bir tərəfdən ona doğru axışmağa başladılar.

Bura qədər qeyd edilən Quranın Allah dostlarının qəbirlərinə ehtiram göstərilməsinin əhəmiyyətinə və onların ziyarət edilməsinə dair bir dəlil idi. Bu həm də o deməkdir ki, onların üzərində və ya kənarında məscid tikmək icazəlidir.

1. Kəhf: 21.
2. Şövkani, Məhəmməd ibn Əli, fəthul-Qədir, c. 3, s. 277.

2-ci ayə: "Əgər onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər".[1]

Bu ayə öz aralarındakı ixtilafı həll etmək üçün tağuta müraciət edən bir qrup münafiq barəsində nazil oldu. Onlar Allah rəsulunun yanına gəlməkdən boyun qaçırdılar və o həzrətin onları rüsvay etdikdən və adlarını bir-bir qeyd etdikdən sonra etdikləri işə görə peşman oldular. Deməк, əgər bu münafiqlər bundan öncə tövbə etsəydilər, Allah rəsulu (s) onlar üçün bağışlanmaq diləyər və Allah da onların tövbəsini qəbul edərdi.

Baş vermiş hadisəəslində belədir: On iki nəfər münafiq həzrət Peyğəmbərə (s) tələ qurmaq, ona qarşı sui-qəsd hazırlamaq üçün bir yerə toplaşdılar və belə bir niyyətlə o həzrətin yanına gəldilər. Lakin Cəbrail Peyğəmbərin (s) yanına gələrək onu bu hadisədən xəbərdar etdi. Həzrət isə belə buyurdu: "Bir qrup mənim yanıma gəlib və heç bir zaman nail ola bilməyəcəkləri bir iş ardıncadırlar. Bu adamlar ayağa durmalı vəəfv diləməlidirlər ki, onlar üçün Allahdan bağışlanmaq istəyim". Münafiqlər isə

1. Nisa: 64.

ayağa qalxmadılar. Allah rəsulu yenə buyurdu: "Ayağa durmusunuz?". Onlar isə yenə ayağa durmadılar. Beləliklə, Peyğəmbər (s) buyurdu: "Filankəs, ayağa dur. Filankəs, sən də ayağa dur". O həzrət ardıcıllıqla on iki nəfərin adını çəkdi. Onlar ayağa duraraq dedilər: "Biz sən deyəni edəcəkdik. İndi isə özümüzə etdiyimiz zülmə görə Allah dərgahına tövbə edirik. Elə isə bizim üçün bağışlanmaq dilə!". Bu zaman Allah elçisi belə buyurdu: "Durun, çıxın mənim yanımdan. Əvvəldə sizə şəfaət etmək üçün daha sevincli idim, Allah da duamı tez qəbul edəcəkdi".[1]

Bəli, müsəlmanlar Peyğəmbər (s) həyatda olarkən günah etdikləri zaman bağışlanmaq və şəfaət üçün o həzrətin yanına gələrdilər. Onlar bu işdə Peyğəmbərə (s) hörmət göstərirdilər. O həzrətin ölümündən sonra da, bu əməli sevir və onun qəbrinin yanına gələrək bağışlanmaq, şəfaət diləyirdilər, çünki Peyğəmbərə (s) hörmət bəsləmək onun vəfatından sonra belə, həyatındakı kimi vacib hesab olunur. Peyğəmbərin (s) səhabələri də uzun bir müddət belə edirdilər. Onlardan sonra isə tabiinlər vəs. insanlar bunu davam etdirirdilər. Örnək olaraq Malik ibn Ənəsin Peyğəmbər qəbrinin kənarında Abbasilər

1. Təbərsi, Fəzl ibn Həsən, məcməul-Bəyan, c. 4, s. 120; Fəxr Razi, Məhəmməd ibn Ömər, ət-Təfsirul-Kəbir, c. 10, s. 162.

silsiləsindən olan xəlifələrdən biri Mənsur Abbasiyə verdiyi cavabı qeyd etmək olar: Əbucəfər Mənsur Mədinəyə daxil olur və Allah elçisinin qəbrini ziyarət etmək istəyir. Malik ibn Ənəsə belə deyir: "Dua etmək üçün qibləyə dönüm, yoxsa Allah elçisinə tərəf?" Malik isə cavabında belə deyir: "Nə üçün o həzrətdən üz döndərəsən, halbuki qiyamət günü o, sənin və atan Adəmin Allah qatındakı vəsiləsi olacaq. Allah elçisinə tərəf dön və ondan şəfaət dilə ki, Allah onun şəfaətini qəbul edəcəkdir".[1]

Nəticə olaraq deyə bilərik ki, yuxarıda qeyd olunan ayə müsəlmanları Allah rəsulunu ziyarət edərək, ondan həyatda olduğu kimi bağışlanmaq diləyib bununla da o həzrətə qarşı hörmət bəsləmək üçün təşviq edir.

## İkinci fəsil: Sünnədə ziyarət

Peyğəmbər zamanında ziyarət dini baxımdan bir neçə fərqli mərhələdən keçmişdir. Bu ayin, Kəhf surəsinin 21-ci ayəsində aydınlaşdırdığımız kimi, ilk əvvəllər başqa dini ayinlər kimi icazəli idi, amma ikinci mərhələdə aşağıdakı hədisdə qeyd edəcəyimiz səbəbə görə qadağan edildi və sonra müəyyən şərtlər daxilində bu ayinə

1. Miqrizi, Əhməd ibn Əli, İmnaul-Əsma, c. 14, s. 617; Salihi Şami, Məhəmməd ibn Yusuf, Subulul-Huda vər-Rəşad, c. 11, s. 429; Əmini, Əbülhüseyn, əl-Ğədir, c. 5, s. 135.

yenidən icazə verildi. Hədis belədir: «Qəbirlərin ziyarətini sizə qadağan etmişdim, indi isə onları ziyarət edin».[1] Bu hədis göstərir ki, müsəlmanlar Peyğəmbərin (s) qadağasından qabaq qəbirlərin ziyarətinə gedirdilər, ancaq sonradan bu iş onlara yasaq edildi, daha sonra isə Peyğəmbər (s) yenidən onlara ziyarət icazəsi verdi.

Qəbirlərin ziyarətinin qadağan edilməsi səbəbinə gəlincə, İbn Abbas bunu belə izah edir: Allah rəsulu (s) belə buyurdu: "Qəbirlərin ziyarətini sizə qadağan etdim, indi isə onların ziyarətinə gedin və "hucr" söyləməyin".[2]

"Hucr" ərəb dilində elə çirkin sözə deyi-

1. Bax: İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 1, s. 145; İbn Macə, Məhəmməd ibn Yəzid, əs-Sunən, c. 1, s. 501; Tirmizi, Məhəmməd ibn İsa, əs-Sunən, c. 2, s. 259; Nisai, Əhməd ibn Şüeyb, əs-Sunən, c. 8, s. 311; Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, əl-Mustədrək, c. 1, s. 374; Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 4, s. 76-77; Heysəmi, Əli ibn Əbubəkr, Məcməuz-Zəvaid, c. 3, s. 59; İbn Həcər, Əhməd ibn Əli, Fəthul-Bari, c. 3, s. 118; Eyni Hənəfi, Bədruddin Əhməd, Umdətul-Qari, c. 8, s. 69; Nisai, Əhməd ibn Şüseyb, əs-Sunənul-Kubra, c. 3, s. 225; Əbuyəla, Əhməd ibn Əli, əl-Musnəd, c. 1, s. 240; İbn Bəlban, Əli, səhih ibn Həbban bi-tərtibi İbn Həbban, c. 3, s. 261; Təbərani, Süleyman ibn Əhməd, əl-Mucəmul-Kəbir, c. 2, s. 94; Təbərani, musnəduş-Şamiyyin, c. 3, s. 347; Dariqutni, Əli ibn Ömər, əs-Sunən, c. 4, s. 173; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, c. 11, s. 473.

2. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 5, s. 361; Heysəmi, Əli ibn Əbubəkr, məcəməuz-Zəvaid, c. 3, s. 59; Təbərani, Süleyman ibn Əhməd, əl-Mucəmul-Kəbir, c. 1, s. 82; İbn Əbilbir, Abdullah ibn Məhəmməd, əl-İstizkar, s. 182.

lir ki, çirkinliyinə görə insan ondan uzaqlaşaraq onu tərk etməlidir. Rağib İsfahani belə yazır: "Hucr- elə bir çirkin sözdür ki, çirkinliyinəgörə tərk edilir. Necə ki, hədisdə deyilir: Hucr söyləməyin!". Ərəb dilində kimsə qəsdən çirkin, pis söz dilə gətirmək istəsə, belə deyərlər: "Uhcur fulanə (Filan kəsə hucr söylə)". Həmçinin xəstə adam istəmədən pis şeylər sayıqlayanda da, ərəb "Əhcərəl-məriz (Xəstə hucr söyləyir)" ifadəsini işlədir.[1]

lisanul-Ərəb lüğətində isə belə deyilir: "əl-Hucr çirkin söz və sayıqlamadır. Bu kəlmə pərdəni aradan götürmə və söyüş anlamlarını ifadə edən "əl-İhcar" sözünün isim formasıdır. Bu kəlmə həmçinin o yerdə işlədilir ki, kimsə nalayiq bir şey barəsində çox danışa".[2]

İnsanlar qəbirləri ziyarət edərkən nalayiq sözlər dilə gətirirdilər. Buna görə də, Peyğəmbər (s) ziyarəti icazəli, nalayiq sözləri isə haram etdi. Peyğəmbərin bu hədisi də bizim müddəamızı təsdiqləyir: "Qəbirlərin ziyarətini sizə qadağan etdim. İndi isə onları ziyarət edin və Allahın qəzəbinə səbəb olan bir şey deməyin!».[3] Bu hədis-

1. Rağib İsfahani, Hüseyn ibn Məhəmməd, mufrədatu əlfazil-Quran, s. 537.

2. İbn Mənzur, Məhəmməd ibn Mükərrəm, lisanul-Ərəb, c. 5, s. 253; həmçinin bax: Hərəvi, Qasim ibn Salam, ğəribul-Hədis, c. 2, s. 63; İbn Əsir, Mübarək ibn Mübarək, ən-Nihayətu fi ğəribil-Hədis, c. 5, s. 245.

3. Heysəmi, Əli ibn Əbubəkr, Məcməuz-Zəvaid, c. 3, s. 58.

də “hucr” Allahın qəzəbinə səbəb olan şey kimi təfsir edilmişdir.

Bəzi hədislər var ki, Allah rəsulunun (s) qəbir ziyarəti mədəniyyətini formalaşdırdığına dəlalət edir. Bu da ziyarətin dini baxımdan icazəli və Peyğəmbər zamanında var olduğunu göstərir. Büreydənin nəql[1] etdiyi hədisdə göstərildiyi kimi, həzrət Peyğəmbər (s) insanlara öyrədirdi ki, qəbirlərin ziyarətinə gedərkən sizlərdən biri belə desin: “Əs-səlamu əleykum əhləd-diyari minəl-mumininə vəl-muslimin vəənə inşəallah bi-kum lahiqun, nəsəlu ləna və ləkumul-afiyəh”.[1]

Allah rəsulu (s) da qəbirlərin ziyarətinə gedirdi və müsəlmanları təşviq edirdi ki, möminlərin, şəhidlərin vəəməlisaleh adamların qəbirlərini ziyarət etsinlər. Bu barədə çoxsaylı hədislər var, o cümlədən:

1. Büreydə Allah rəsulunun (s) belə buyurduğunu bir hədis nəql edir: «Qəbirlərin ziyarət edilməsini sizə qadağan etdim. Məhəmmədə anasının qəbrinin ziyarətinə getməyə icazə verildi. Elə isə qəbirləri zi-

---

1. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 5, s. 359; Quşeyri Nişapuri, Muslim ibn Həccac, əs-Səhih, c. 3, s. 64; İbn Macə, Məhəmməd ibn Yəzid, əs-Sunən, c. 1, s. 494; Nisai, Əhməd ibn Şüeyb, əs-Sunən, s. 94; Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 4, s. 79; Nisai, Əhməd ibn Şüeyb, əs-Sunənul-Kubra, c. 1, s. 657.

yarət edin ki, bu da axirəti sizə xatırladar».[1] Tirmizi bu hədisin həsən və səhih olduğunu qeyd edib.[2] Bu hədis müəyyən qəbirə ziyarət etmək məqsədi ilə getməyin icazəli olduğunu göstərir.

2. Büreydə yenə nəql edir: "Peyğəmbər (s) öz anasının qəbrini başdan-ayağa silahlanmış min atlı ilə birgə ziyarət etdi və o həzrət həmin gündən daha ağlar halda görünmədi".[3] Hakim Nişapuri bu hədisin Buxari və Müslimin qəbul etdiyi şərtlər əsasında səhih olduğunu qeyd edib.

Əbu Hüreyrədən öncəki hədisə bənzər bir hədis də nəql edilib. O belə deyir: "Peyğəmbər (s) anasının qəbrini ziyarət edib ağladı vəətrafındakıları da ağlatdı".[4]

---

1. Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 8, s. 311; Eyni Hənəfi, Bədruddin Əhməd, umdətul-Qari, c. 8, s. 69; Mübarəkfuri, tuhfətul-Əhvəzi, c. 4, s. 135; İbn Əbuşeybəh, əl-Musənnəf, c. 3, s. 224; Əbunüeym İsfahani, Əhməd ibn Abdullah, musnədu Əbi Hənifə, s. 146; İbn Əbdulbir, Yusuf ibn Abdullah, ət-Təmhid, c. 3, s. 223 və 225; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, s. 647, hədis: 42555; Vaqidi, Məhəmməd ibn Səd, ət-Təbəqatul-Kubra, c. 1, s. 116.

2. Tirmizi, Məhəmməd ibn İsa, əs-Sunən, c. 2, s. 259.

3. Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, əl-Mustədrək, c. 1, s. 375 və c. 2, s. 605; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, c. 12, s. 442.

4. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 2, s. 44; Quşeyri Nişapuri, Muslim ibn Həccac, əs-Səhih, c. 1, s. 501; İbn Bəlbab, Əli, səhih ibn Həbban bi-tərtibi ibn Bəlbab, s. 440; İbn Həzm, Əli ibn Əhməd, əl-Muhəlla, c. 5, s. 161; Şövkani, Məhəmməd ibn Əli, neylul-Əvtar, c. 4, s. 164.

3. Təlhə ibn Abdullahdan belə nəql edilir ki, Allah elçisi şəhidlərin qəbrini ziyarət etmək istəyirdi, biz də onunla birgə getdik. «Hərrətu-vaqim»[1] adlı bir məkana çatan kimi oranın çökəkliyində bəzi qəbirlərlə rastlaşdıq və dedik: Ey Allah elçisi, bunlar bizim qardaşlarımızın qəbirləridirlər? O həzrət isə buyurdu: "Bizim əshablarımızın (dostlarımızın) qəbirləridirlər". Şəhidlərin qəbirlərinə çatanda isə belə buyurdu: "Bunlar bizim qardaşlarımızın qəbirləridir".[2]

Bu hədisdə açıq-aşkar şəkildə bildirilir ki, müəyyən bir qəbiri ziyarət etmək niyyəti ilə evdən çıxmaq axirəti yada salmaq üçün yox, əksinə o qəbrin qazandığı xüsusi statusa görədir. Əks təqdirdə, Mədinəyə daha yaxın olan qəbirlərin və ya Allah elçisinin kənarında "Bunlar bizim əshablarımızın qəbirləridirlər»,-dediyi qəbirlərin ziyarət edilməsi onları istədiyi hədəfə (axirəti yada salmaq) çatdırardı. Hədisin bildirdiyi kimi, Allah elçisi (s) Mədinənin şərqində yerləşən «hərrətu-vaqim» adlı

1. «Hərrətu-vaqim» hicrətin 62-ci ilində Peyğəmbərin (s) səhabələri və onların övladlarından ibarət olan Mədinə xalqı ilə Müaviyə ibn Yezidin qoşunu arasında baş verən qanlı döyüş məkanına deyilir.

2. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 1, s. 161; Əbudavud, Süleyman ibn Əşəs, əs-Sunən, c. 1, s. 453; Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 5, s. 246; İbn Əbdulbir, Yusuf ibn Abdullah, ət-Təmhid, c. 20, s. 245-246.

məkanın arxasında olan şəhidlərin qəbirlərini ziyarət etməyi istəyirdi.

4. Səhih bir hədisdə deyilir ki, Allah rəsulu (s) dəfələrlə Bəqiyə gedər və orada dəfn edilmiş möminlərin qəbirlərini ziyarət edərdi. Aişə nəql edir ki, onun növbəsi olanda (Peyğəmbər gecə onun yanında olanda) Allah elçisi gecənin axırlarında Bəqiyə gedər və belə buyurardı: «Əs-səlamu əleykum darə qovmin muminin. Fə-inna və iyyakum və ma tuədunə ğədən muəccəlun (Salam olsun sizə, ey mömin qövmün evi! Biz, siz və sabah sizə vəd edilənlər təxirə salınmaqdadır)».[1]

5. İbad ibn Əbusalihdən nəql edilir ki, Allah rəsulu (s) hər bir ilin əvvəli Ühüd şəhidlərinin qəbirlərinin yanına gedər və belə buyurardı: "Əs-səlamu əleykum bima səbərtum, fə-nimə uqbəddar (Səbr etdiyinizə görə sizə salam olsun. Axirət evi necə də gözəldir!)".[2]

6. Beyhəqi və Hakim həzrət Fatimədən (ə) belə nəql ediblər: "O xanım atası peyğəm-

1. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 6, s. 180; Quşeyri Nişapuri, Muslim ibn Həccac, əs-Səhih, c. 3, s. 63; Nisai, Əhməd ibn Şüeyb, əs-Sunən, c. 4, s. 94; Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 4, s. 79; Nisai, Əhməd ibn Şüeyb, əs-Sunənul-Kubra, c. 1, s. 656; İbn Bəlban, Əli, səhih İbn Həbban bi-tərtibi İbn Bəlban; c. 7, s. 444; İbn Şəbbəh, Ömər, tarixul-Mədinə, c. 1, s. 9.

2. İbn Şəbbəh, Ömər, Tarixul-Mədinə, c. 1, s. 132.

bərin həyatında hər cümə günü əmisi Həmzənin qəbrini ziyarət edər və onun qəbrinin kənarında namaz qılıb ağlayardı".[1]

Hakim Nişapuri bu hədisi nəql etdikdən sonra belə deyir: "Bu hədisi nəql edən bütün ravilər siqədirlər".[2]

## Üçüncü fəsil: Peyğəmbər və imamların qəbri

Peyğəmbərin və imamların qəbirlərini ziyarət etmək insanların onlarla olan qəlbi əlaqələrini daha da möhkəmləşdirir. Bu isə ona gətirib çıxardır ki, biz daim onları özümüz üçün bir "örnək" seçərək onların insanlığa bəxş etdiyi dəyərləri, gözəl davranış və tərifə layiq əxlaqlarını yenidən dirçəldək.

Ziyarət kimi başqa heç bir davranış ziyarətçinin ziyarət edilən şəxslə olan yaxınlıq duyğusunu möhkəmləşdirə və hərtərəfli tabeçilik, örnək alma, davamlı xatırlama üçün zəmin yarada bilməz.

Ziyarət fenomeni köklü bir ayin kimi göstərir ki, bir toplum, canfəşanlıq edən rəhbərləri öldükdən sonra, onlarla nə qədər dostca bir

1. Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, əl-Mustədrək, c. 1, s. 377; Beyhəqi, Əhməd ibn Hüseyn, əs-Sunənul-Kubra, c. 4, s. 78.

2. Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, əl-Mustədrək, c. 1, s. 377.

kontakta girirlər. Ziyarət həm də köklü və önəmli bir simvol kimi bir toplumun öz rəhbərləri ilə davranışının mədəni komponentlərini əks etdirir.

Həzrət Peyğəmbərin (s) və məsum imamların (ə) ziyarətinin fəzilətinə dair çoxsaylı hədislər vardır. Bu hədislərə görə, bu ilahi şəxsiyyətlərin ziyarət edilməsinin ən bariz fəziləti qiyamət günü onların şəfaətinə nail olmaqdır. İndi isə gəlin, həzrət Peyğəmbərin (s) ziyarətinin fəzilətinədair bəzi hədisləri gözdən keçirək:

1. Abdullah ibn Ömər Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «Hər kəs məni ziyarət edərsə, mənim şəfaətim ona vacib olar».[1]
2. Abdullah ibn Ömər yenə Allah rəsulundan belə nəql edir: "Kim başqa şey üçün yox, təkcə mənim ziyarətimə gəlsə, mənə vacib olar ki, qiyamət günü onun şəfaətçisi olum".[2]

---

1. Dariqutni, Əli ibn Ömər, əs-Sunən, c. 2, s. 244; Suyuti, Cəlaluddin, əl-Camius-Səğir, c. 2, s. 605; Suyuti, əd-Durrul-Mənsur, c. 1, s. 237; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, c. 15, s. 651; Əcluni, İsmail ibn Məhəmməd, kəşful-Xəfa, c. 2, s. 250; İbn Udi, Abdullah, əl-Kamil, s. 6; Zəhəbi, Məhəmməd ibn Əhməd, mizanul-İtidal, c. 4, s. 224; İbn Həcər, Əhməd ibn Əli, lisanul-Əərb, c. 6, s. 135.

2. Heysəmi, Əli ibn Əbubəkr, Məcməuz-Zəvaid, c. 4, s. 2; Təbərani, Süleyman ibn Əhməd, əl-Mucəmul-Əuvsat, c. 5, s. 16; Təbərani, əl-Mucəmul-Kəbir, c. 12, s. 225; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, c. 12, s. 256; Suyuti, Cəlaluddin, əd-Durrul-Mənsur, c. 1, s. 234; Zəhəbi, Məhəmməd ibn Əhməd, Mizanul-İtidal, c. 4, s. 104; İbn Həcər, Əhməd ibn Əli, lisanul-Mizan, c. 6, s. 29.

3. Abdullah ibn Ömər başqa bir hədisdə isə o həzrətdən belə nəql edir: "Kim Mədinəyə gəlsə və məni orada ziyarət etsə, onun şahidi və şəfaətçisi olaram".[1]

Həzrət Peyğəmbərin (s) "...onun şəfaəti mənə vacib olar" -buyurması o deməkdir ki, ziyarətçilər mütləq, Peyğəmbərin (s) qiyamət günü şəfaətinin nəsib olacağı insanların cərgəsinə daxil olacaqlar.

Yuxarıdakı hədislər belə bir müjdə də verirlər ki, Peyğəmbər qəbrini ziyarət edən kimsələr əgər niyyətləri xalis olarsa, onda müsəlman olaraq dünyadan köçəcək. Necə dəgözəl bir müjdədir!

Həmçinin yuxarıda deyilənlərdə Allah rəsulunun (s) məqsədi bu ola bilər ki, əgər hansısa bir ziyarətçi Allaha xatir, Ona yaxınlaşmaq niyyəti ilə Peyğəmbərin qəbrinin ziyarətinə gedərsə, həmin ziyarəti bərəkətinə, fəzilətinə görə bütün müsəlmanlara şamil olacaq şəfaətdən fərqli bir şəfaətə nail olacaqdır.

4. İmam Əli (ə) Peyğəmbərin (s) belə buyurduğunu deyir: "Kim mən öldükdən sonra məni ziyarət edərsə, sağlığımda məni ziyarət edən kəs kimi olar. Əgər bunu edə bilmir-

1. Əcluni, İsmail ibn Məhəmməd, Kəşful-Xəfa, c. 2, s. 251; Məmduh, Məhmud Səid, Rəful-Mənarəh, s. 277; Zəhəbi, Məhəmməd ibn Əhməd, mizanul-İtidal, c. 1, s. 53; İbn Həcər, Əhməd ibn Əli, lisanul-Mizan, c. 1, s. 91.

sizsə, onda mənə salam göndərin ki, bu da mənə gəlib çatır”.[1]

5. Hatib Peyğəmbərin (s) belə söylədiyini nəql edir: “Kim ölümümdən sonra məni ziyarət edərsə, sanki məni sağlığımda ziyarət etmişdir”.[2]

6. Əbuhüreyrə o həzrətdən belə nəql edir: “Kim ölümümdən sonra məni ziyarət edərsə, sanki məni sağlığımda ziyarət etmişdir. Kim də məni ziyarət edərsə, qiyamət günü onun şahidi və şəfaətçisi olaram”.[3]

1. Təmimi, Numan ibn Məhəmməd, dəaimul-İslam, c. 1, s. 296; İbn Quləveyh, kamiluz-Ziyarat, s. 47; Tusi, Məhəmməd ibn Həsən, təhzibul-Əhkam, c. 6, s. 3; Mufid, Məhəmməd ibn Numan, əl-Məzar, s. 168; Mufid, əl-Muqənniə, s. 457; İbn Məşhədi, Məhəmməd ibn İsmail, əl-Məzar, s. 34; İbn Tavus, Əli ibn Musa, iqbalul-Əmal, c. 3, s. 122; Amili (şəhidi-əvvəl), Məhəmməd ibn Məkki, əd-Durusuş-Şəriyyə, c. 2, s. 5; Səbzvari, Məhəmmədbaqir, zəxirətul-Məad, c. 1, s. 707; Bəhrani, Yusuf ibn Əhməd, əl-Hədaiqun-Nazirə, c. 17, s. 405.

2. Rafii, Əbdülkərim ibn Məhəmməd, fəthul-Əziz, c. 7, s. 417; İbn Həcər, Əhməd ibn Əli, təlxisul-Həbir, c. 7, s. 417; İbn Həcər, lisanul-Mizan, c. 6, s. 180; Şövkani, Məhəmməd ibn Əli, neylul-Əuvtan, c. 5, s. 178-179; Dariqutni, Əli ibn Ömər, əs-Sunən, c. 2, s. 244; Zeyləi, Abdullah, ibn Yusuf, təxricul-Əhadisi vəl-Asar, c. 1, s. 199; Müttəqi Hindi, Əli ibn Hisamuddin, kənzul-Ummal, c. 5, s. 135; Suyuti, Cəlaluddin, əd-Durrul-Mənsur, c. 1, s. 237; Zəhəbi, Məhəmməd ibn Əhməd, mizanul-İtidal, c. 4, s. 285; Zəhəbi, Tarixul-İslam, c. 11, s. 213; Miqrizi, Əhməd ibn Əli, imtaul-Əsma, c. 14, s. 617; Salihi Şami, Məhəmməd ibn Yusuf, subulul-Huda vər-Rəşad, c. 12, s. 376.

3. Məmduh, Məhmud Səid, rəful-Mənarə, s. 286; Əmini, Əbdülhüseyn, əl-Ğədir, c. 5, s. 102.

7. Xəttab ailəsindən bir kişi Peyğəmbərin (s) belə buyurduğunu deyir: “Kim məni niyyət edərək ziyarət etsə, qiyamət günü mənim kənarımda (qonşuluğumda) olar”.[1]

8. İmam Sadiq (ə) Allah elçisinin belə buyurduğunu nəql edir: “Kim mənim ziyarətimə gəlsə, mənim şəfaətim ona vacib olar. Kimə mənim şəfaətim vacib olsa, Cənnətona vacib olar”.[2]

Məsum imamların ziyarət edilməsinin fəzilətinə dair mütəvatir (çox saylı) hədislər var. Onları burada təfsilatı ilə bəhs edə bilməsək də, iki dəyərli hədisi qeyd etməklə kifayətlənirik:

1. Əbuamir Saci belə nəql edir: Əbu Abdullah Cəfər ibn Məhəmmədin (ə) hüzurna gəlib

1. Müttəqi Hindi, Əli ibn Hisamuddin, Kənzul-Ummal, c. 5, s. 136; Suyuti, Cəlaluddin, əd-Durrul-Mənsur, c. 1, s. 237; Zəhəbi, Məhəmməd ibn Əhməd, Mizanul-İtidal, c. 4, s. 285; İbn Həcər, Əhməd ibn Əli, lisanul-Mizan, c. 6, s. 180.

2. Küleyni, Məhəmməd ibn Yəqub, əl-Kafi, c. 4, s. 548; Səduq, Məhəmməd ibn Əli ibn Quləveyh, mən-la yəhzuruhul-Fəqih, c. 2, s. 565; Tusi, Məhəmməd ibn Həsən, təhzibul-Əhkam, c. 5, s. 4; Hürr Amili, Məhəmməd ibn Həsən, Vəsailuş-Şiə, c. 14, s. 333; İbn Məşhədi, Məhəmməd ibn İsmail, əl-Məzar, s. 33; Burucerdi, Hüseyn, Camiu əhadisuş-Şiə, c. 12, s. 228; Huveyzi, Əbuəli ibn Cümə, Nurus-Səqəleyn, c. 1, s. 541; Mühəqqiq Ərdəbili, Əhməd ibn Məhmud, məcməul-Faidəti vəl-Burhan, c. 7, s. 426; Amili, seyid Məhəmməd, Mədarikul-Əhkam, c. 8, s. 278; Bəhrani, Yusuf ibn Əhməd, əl-Hədaiqun-Nazirə, c. 17, s. 401; Nəraqi, Əhməd ibn Məhəmmədmehdi, Mustənəduş-Şiə, c. 13, s. 328; Nəcəfi, Məhəmmədhəsən, Cəvahirul-Kəlam, c. 17, s. 222.

ona belə dedim: «Ey Allah rəsulunun oğlu, əmirəlmöminin Əlinin (ə) qəbrini ziyarət edən və türbətini abadlaşdıran kəsin mükafatı nədir?» O belə buyurdu: «Ey Əbuamir, atam mənə öz atasından, o da babası Hüseyn ibn Əlidən belə nəql edir ki, Allah rəsulu (s) əmirəlmöminin Əliyə belə buyurdu: «And olsun Allah ki, İraq torpağında qətlə yetiriləcək və həmin torpaqda dəfn ediləcəksən». İmam Əli (ə) isə belə buyurdu: "Ey Allahın rəsulu, bizim qəbrimizi ziyarət edib onu abadlaşdıran və ona bağlı adamın mükafatı nədir?». Allah rəsulu cavabında belə söylədi: «Ey Əbülhəsən, Allah sənin və övladlarının qəbrini Cənnətin bir hissəsindən, onun bir sahəsindən etmiş və sizə görəəziyyətlərə qatlaşmaq üçün öz seçilmiş və dəyərli qullarının qəlblərini sizə qarşı müştaq, meylli etmişdir. Onlar sizin qəbirlərinizi abadlaşdıracaq və Allaha yaxınlaşmaq və Onun peyğəmbərinə sevgi bəsləmək üçün sizin qəbirlərinizi çox ziyarət edəcəklər. Ey Əli, mənim şəfaətim onlara şamil olacaq. Məhz onlar mənim Kövsər hovuzumun kənarına gələcəklər və qiyamət günü Cənnətdə məni ziyarət edəcəklər".[1]

1. Tusi, Məhəmməd ibn Həsən, Təhzibul-Əhkam, c. 6, s. 22 və 107; Hürr Amili, Məhəmməd ibn Həsən, Vəsailuş-Şiə, c. 14, s. 383; Səqəfi, İbrahim ibn Məhəmməd, əl-Ğarat, c. 2, s. 855; Mufid, Məhəmməd ibn Numan, əl-Məzar, s. 228; Tavusi, Əbdülkərim ibn Əhməd, Fərhətul-Ğura, s. 104; Məclisi, Məhəmmədbaqir, Biharul-Ənvar, c. 97, s. 121; Burucerdi, Hüseyn, Camiu əhadisiş-Şiə, c. 3, s. 446; Nəraqi, Məhəmmədmehdi, Camius-Səadat, c. 3, s. 319.

2. Həsən ibn Əli Vəşşa nəql edir ki, imam Rza (ə) belə buyurdu: «Hər bir imamın öz dostları və şiələrinin boynunda bir əhdi var. O əhdə qarşı kamil vəfadarlıq, onu gözəl şəkildə həyata keçirmək onun qəbirini ziyarət etməkdən ibarətdir. Elə isə kimsə rəğbətlə buna inanaraq onu ziyarət edərsə, bu zaman onun imamı qiyamət günü onun şəfaətçisi olar".[1]

Bu kitabda imam Rzanın (ə) ziyarətinin fəzilətinə dair olan bəzi hədisləri qeyd edib, onların sənədlərinin səhih olduğunu aydınlaşdıracağıq. Əgər bu səhih hədislər üzərində dayanıb düşünsək, anlayarıq ki, imam Rzanın ziyarəti kamil bir mükafat və savaba malikdir. Mövzuya başlamazdan əvvəl, yaxşı olardı ki, imam Rzanın (ə) bu hədislərdə qeyd olunan ziyarətinin mükafat və fəzilətinə işarə edək:

1. İbn Quləveyh, Cəfər ibn Məhəmməd, Kamiluz-Ziyarat, s. 237; Səduq, Məhəmməd ibn Əli Babəveyh, Uyunu əxbarir-Riza, c. 1, s. 292; Səduq, mən-la yəhzəruhul-Fəqih, c. 2, s. 577; Tusi, Məhəmməd ibn Həsən, Təhzibul-Əhkam, c. 6, s. 79; Fəttal Nişapuri, Məhəmməd ibn Həsən ibn Əli, Rövzətul-Vaizin, s. 202; Hürr Amili, Məhəmməd ibn Həsən, Vəsailuş-Şiə, c. 14, s. 322 və 444; Mufid, Məhəmməd ibn Numan, əl-Məzar, s. 201; Məclisi, Məhəmmədbaqir, Biharul-Ənvar, c. 97, s. 116; Amili (şəhidi-əvvəl), Məhəmməd ibn Məkki, əd-Durusuş-Şəriyyə, c. 2, s. 8; Amili, seyid Məhəmməd, Mədarikul-Əhkam, c. 8, s. 469; Bəhrani, Yusuf ibn Əhməd, əl-Hədaiqun-Nazirə, c. 17, s. 433; Xansari, seyid Əhməd, Camiul-Mədarik, c. 2, s. 554.

1. İmam Rzanın (ə) ziyarəti bir milyon həccdən daha üstündür.

2. Kim imam Rzanı (ə) ziyarət etsə, Allah onun keçmiş və gələcək günahlarını bağışlayar.

3. Kim imam Rzanın (ə) ziyarətinə gedərsə, Cənnət ona vacib olar.

4. İmam Rzanın (ə) ziyarətçisi üçün yüz min şəhid, siddiq və mücahid savabı yazılar.

5. İmam Rzanı (ə) ziyarət edən məsum imamlarla birgə məhşərə çıxar.

6. İmam Rzanın (ə) ziyarəti imam Hüseyni Kərbəlada ziyarət etməkdən daha üstündür.

7. İmam Rzanın (ə) qəbrini ziyarət edənin duası qəbul olar.

8. İmam Rzanın (ə) ziyarətçisi məsum imamların şəfaətinə nail olar.

9. İmam Rzanı (ə) ziyarət edən Cənnətin yüksək dərəcələrində məsum imamlarla birgə olar.

Qarşınızdakı bu kitab sizə, adıgedən yüksək məzmunları özündə ehtiva edən hədisləri təqdim etmək niyyətindədir. Kitabda eyni zamanda məzmunca bu səhih hədislərə yaxın olan hədisləri də qeyd edəcəyik.

Bu kitabı yazmaqla Tus ərazisində dəfn edilən mövlamın şəfaətinə göz dikmişəm. Ümid edirəm ki, məni də qiyamətdə şəfaətinə ümid bəsləyən öz qədirbilən ziyarətçilə-

rinin cərgəsinə daxil etsin!

İmam Rzanın (ə) ziyarətinin fəzilətinə dair hədislərin sayı əlli hədisə çatır. Əllamə Məclisi "Biharul-Ənvar" kitabında bir bölmə açaraq imam Rzanın (ə) ziyarətinin fəzilətinə dair orada qeyd etmişdir.[1]

Bu kitabda xüsusilə, on iki səhih hədisi qeyd edəcəyik. Bu hədislər aşağıdakı kimidir:

1. Əhməd ibn Məhəmməd ibn Əbunəsr Bəzəntinin birinci səhih hədisi;

2. Əhməd ibn Məhəmməd ibn Əbunəsr Bəzəntinin ikinci səhih hədisi;

3. Əbdurrəhman ibn Əbunəcranın səhih hədisi;

4. İbn Məhziyarın birinci səhih hədisi;

5. Əli ibn Əsbat Kufinin səhih hədisi;

6. Həsən ibn Əli Vəşşa Kufinin səhih hədisi;

7. Seyid Əbduləzim Həsəninin səhih hədisi;

1. Məclisi, Məhəmmədbaqir, Biharul-Ənvar, c. 99, s. 31-44.

8. Əbusəlt Hərəvinin birinci səhih hədisi;

9. Əbusəlt Hərəvinin ikinci səhih hədisi;

10. İbn Məhziyarın ikinci səhih hədisi;

11. Davud Cəfərinin səhih hədisi;

12. Yasir Xadimin səhih hədisi.

İndi isə gəlin, Allahın yardımı ilə bu hədisləri sıra ilə qeyd edək.

# Bəzəntinin birinci səhih hədisi

Şeyx Səduq bu hədisi həm “əl-Əmali”, həm də “Uyunu əxbarir-Riza» kitabında bir dəfə öz atasından, bir dəfə də İbn Vəlid və öz atasından, onlar da Səddən, Məhəmməd ibn Hüseyn ibn Əbulxəttabdan, o da Bəzəntidən nəql edir ki, Bəzənti imam Rzanın (ə) belə buyurduğunu dedi:

«Dostlarımdan kim haqqımı və maqamımı tanıyaraq məni ziyarət edərsə, qiyamət günü ona şəfaət edərəm».[1]

Bu hədisi Fəttal Nişapuri “Rövzətul-Vaizin” kitabında, Əllamə Məclisi isə “biharul-Ənvar” əsərində qeyd etmişdir.[2]

1. Səduq, Məhəmməd ibn Əli ibn Babəveyh, Uyunu əxbarir-Riza, c. 1, s. 289; həmçinin əl-Əmali, s. 181. Qeyd edək ki, ikinci kitabda «təşəff›ətu” feli əvəzinə “şəffə’tu” feli qeyd olunmuşdur.

2. Fəttal Nişapuri, Məhəmməd ibn Həsən ibn Əli, Rövzətul-Vaizin, s. 243; Məclisi, Məhəmmədbaqir, biharul-Ənvar, c. 99, s. 33.

## Birinci məqam

Quran məntiqində şəfaət iki növdür:

Birinci növ: Allahdan qeyrisinin şəfaəti; Allah-taala Quranda bu cür şəfaəti inkar etmişdir: “Onların Allahdan başqa heç bir dost və şəfaətçisi yoxdur”.[1]

Mütləq şəfaət elə bir şəfaətdir ki, həm şəfaət diləyənin istəyini, hacətini həyata keçirə, həm də şəfaət edəni - hətta istəməsə də belə - o istəyi, hacəti həyata keçirməyə məcbur edə bilsin. Bu mənada şəfaət təkcə Allah-taalaya məxsusdur. O belə buyurur: “De: “Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü Onun əlindədir. Sonra siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız!”.[2]

Kimsənin Allah qatında belə bir şəfaət edə biləcəyinə etiqad bəsləmək şirk hesab olunur. Bu, əslində o şəfaət növüdür ki, bütpərəstlər ona əsasən bütləri ibadətə layiq bilmişdilər.

İkinci növ: Allahın icazəsi ilə olan şəfaət. Allah Qurani-Kərimdə bu cür şəfaəti yasaqlanmış şəfaət növündən istisna edərək onu istədiyi bəndələri üçün təyin etmişdir. Allah-taala belə buyurur: “Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda)

1. Ənam: 51.
2. Zumər: 44.

kim şəfaət edə bilər?"[1] Həmçinin belə buyurur: «Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə izin verdikdən sonra».[2]Başqa bir ayədə isə belə buyurur: "Onlar yalnız (Allahın) razı olduğu (izin verdiyi) kəslərdən ötrü şəfaət edə bilər".[3] Bu cür şəfaət əslində şəfaət diləyən adamın Allahdan öz hacətini istəməsi deməkdir.

Başqaları üçün Allahdan bağışlanma diləmək də şəfaət anlayışının dairəsinə daxildir. Allah-taala öz Peyğəmbərinə icazə verdi ki, mömin kişi və qadınlar üçün bağışlanma diləsin. Allah belə buyurur: "Onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş.",[4] "Onlar (kişilər) üçün Allahdan bağışlanmaq dilə."[5] və "Onlar (qadınlar) üçün Allahdan bağışlanmaq dilə".[6]

Allah-taala Ondan bağışlanmaq diləyən və bu işdə Peyğəmbəri (s) şəfaətçi seçən hər bir kəsə bağışlanma vədi vermişdir. Allah bu

1. Bəqərə: 255.
2. Nəcm: 26.
3. Ənbiya: 28.
4. Ali İmran: 159.
5. Nur: 62.
6. Mumtəhənə: 12.

barədə belə buyurur: “Onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər”.[1]

Allah Quranda xəbər verir ki, mələklər möminlər üçün bağışlanmaq diləyirlər: “Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: “Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!”.[2]

Allah-taala bizi Nuhun duasından və onun möminlər üçün bağışlanmaq diləməsindən də xəbər vermişdir. Quranda belə oxuyuruq: “Ey Rəbbim! Məni, ata-anamı, mənim eviməmömin kimi daxil olan kimsəni və (qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla”.[3]

Həmçinin Quranda İbrahim peyğəmbərin (ə) duası və möminlər üçün bağışlanmaq diləməsi qeyd olunmuşdur. Allah bu barədə belə buyurur: “Ey Rəbbim! Haqq-hesab çə-

1. Nisa: 64.
2. Ğafir: 7.
3. Nuh: 28

kilən gün (qiyamət günü) məni, ata-anamı və möminləri bağışla!”.[1]

Beləliklə, Allahın izni ilə olan şəfaət Quranın möhkəm ayələrinə baxımından məqbul və isbat ediləndir.

Şiə və sünni hədisərindən də belə məlum olur ki, Peyğəmbərin (s) qəbrini ziyarət etmək şəfaətə səbəb olar. Dariqutni İbn Ömərdən öz isnadı ilə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «Kim mənim qəbrimi ziyarət etsə, ona şəfaət etmək mənə vacib olar».[2]

Zəhəbi isə bu hədisi başqa bir ifadə ilə belə nəql etmişdir: “Kim məni ölümümdən sonra ziyarət edərsə, ona şəfaət etmək mənə vacib olar”.[3]

Bir çox hədislər açıqca qeyd edir ki, imamların qəbrini ziyarət etmək onların şəfaətinə

1. İbrahim: 41

2. Dariqutni, Əli inb Ömər, əs-Sunən, c. 2, s. 244; habelə bax: Heysəmi, Əli ibn Əbubəkr, Məcməuz-Zəvaid, c. 4, s. 2; Müttəqi Hindi, Əli ibn Hisamuddin, Kənzul-Ummal, c. 15, s. 651; Suyuti, Cəlaluddin, əd-durrul-Mənsur, c. 1, s. 237; İbn Udi, Abdullah, əl-Kamil, c. 6, s. 351; Zəhəbi, Məhəmməd ibn Əhməd, Mizanul-İtidal, c. 4, s. 226; Zəhəbi, Tarixul --İslam, c. 11, s. 212; Miqrizi, Əhməd ibn Əli, İmtaul-Əsma, c. 14, s. 614; İbn Həcər, Əhməd ibn Əli, ət-Təlxisul-Həbir, c. 7, s. 417; İbn Həcər, lisanul-Mizan, c. 6, s. 135; Şövkani, Məhəmməd ibn Əli, neylul-Əuvtar, c. 5, s. 179.

3. Zəhəbi, Məhəmməd ibn Əhməd, tarixul-İslam, c. 11, s. 212; Müttəqi Hindi, Əli ibn Hisamuddin, Kənzul-Ummal, c. 15, s. 373, hədis: 41486.



nail olmağa səbəb olar.[1] Habelə, Bəzəntinin nəql etdiyi səhih hədis də bildirir ki, imam Rza (ə) qiyamət günü onu sevən ziyarətçilərini şəfaət edəcəkdir.

## İkinci məqam

İmam Rzanın (ə) ziyarətinin fəziləti ilə bağlı Bəzəntinin səhih hədisinə yaxın məzmunda iki hədis var. Gəlin, bu iki hədisi gözdən keçirək:

### Birinci hədis:

Şeyx Səduq Talaqanidən, İbn Uqdədən, Əli ibn Həsən ibn Əli ibn Fəzzaldan, o da atasından belə nəql edir ki, imam Rzadan (ə) belə buyurduğunu eşitdim: «Mən zəhərlə qətlə yetiriləcəyəm və qərib bir diyarda dəfn olunacağam. Bu xəbəri mənə atam öz babaları vasitəsi ilə həzrət Peyğəmbərdən çatdırıb. Bilin, kim məni qürbətdə ziyarət edərsə, mən və atam qiyamət günü ona şəfaət edərik. Hər kəsə biz şəfaət etsək, o adam insanlar və cin-

1. İbn Quləveyh, Cəfər ibn Məhəmməd, kamiluz-Ziyarət, s. 237; Səduq, Məhəmməd ibn Əli, Uyunu əxbarir-Riza, c. 1, s. 292; Səduq, Mən la yəhzuruhul-Fəqih, c. 2, s. 577; Tusi, Məhəmməd ibn Həsən, təhzibul-Əhkam, c. 6, s. 22 və 107; Hürr Amili, Məhəmməd ibn Həsən, vəsailuş-Şiə, c. 14, s. 383; Səqəfi, İbrahim ibn Məhəmməd, əl-Ğarat, c. 2, s. 855; Mufid, Məhəmmən ibn Məhəmməd ibn Numan, əl-Məzar, s. 228; Tavusi Ələvi, Əbdulkərim ibn Əhməd, Fərhətul-Ğura, s. 104; Məclisi, Məhəmmədbaqir, biharul-Ənvar, c. 97, s. 121; Burucerdi, Hüseyn, camiu əhadisuş-Şiə, c. 3, s. 446.

lərin günahlarını daşısa da, nicat tapar».[1]

## İkinci hədis:

Şeyx Səduq "əl-Xisal" kitabında Məhəmməd ibn Musa əl-Mutəvəkkildən, Məhəmməd ibn Cəfər Kufi Əsədidən, Əhməd ibn Məhəmməd ibn Salehdən, o da Həmədan Divanidən imam Rzanın (ə) belə buyurduğunu nəql edir: "Kim məni qürbət diyarda ziyarət edərsə, qiyamət günü üç yerdə onun fəryadına çatar və onu qorxulardan, çətinliklərdən xilas edərəm: Nameyi-əməllər sağ və soldan paylanılanda, sirat körpüsündən keçəndə vəəməllər ölçüləndə (dəyərləndiriləndə)».

Qeyd edək ki, Həmədan Divaninin nəql etdiyi hədis Bəzəntinin səhih hədisi ilə öz təsdiqini tapır, çünki Bəzəntinin səhih hədisində deyilir ki, imam Rza (ə) öz qəbrini ziyarət edənlərə şəfaət edəcək. Deməli, qiyamət günündə ziyarətçilərə şəfaət edilməsi məsələsi Bəzəntinin səhih hədisi ilə təsbit olur.

Aydındır ki, şəfaət çoxsaylı yerlərdə baş tutacaq ki, onların ən barizi adıgedən hədisdə qeyd olunduğu kimi, üç yer hesab olunur: 1) nameyi-əmal sağ və soldan paylanılanda, 2) Sirat körpüsündən keçəndə, 3) əməllər

1. Səduq, Məhəmməd ibn Əli, əl-Əmali, s. 709; Səduq, Uyunu əxbarir-Riza, c. 1, s. 294; Məclisi, Məhəmmədbaqir, biharul-Ənvar, c. 99, s. 34.

ölçüləndə. Biz hesab edirik ki, imam Rza (ə) bu kəlamında xanım Aişənin nəql etdiyi hədisə işarə etmişdir: Əhməd ibn Hənbəl öz «əl-Musnəd» kitabında Yəhya ibn İshaqdan[1], İbn Ləhiədən[2], Xalid ibn Əbuimrandan[3], Qasim ibn Məhəmməddən[4], o da Aişədən onun Allah elçisindən belə soruşduğunu nəql edir: Qiyamət günü dost öz dostunu yada salacaqmı? Allah elçisi onun cavabında belə buyurdu: "Ey Aişə, bu, üç yerdə olmayacaq: o zaman ki, əməllər tərəzinin gözlərinin ağırlaşması və ya yüngülləşməsi üçün ölçüləcək, o zaman ki, nameyi-əməllər paylanılaraq sağ

1. Yəhya ibn İshaq Seylhini Əbubəkr Bağdad sakini olub, əməlisaleh və siqə (doğru danışan) bir alim hesab olunur. O, hicrətin 210-cu ilində dünyasını dəyişib. Zəhəbi, Məhəmməd ibn Əhməd, Siyəru əlamun-Nubəla, c. 9, s. 505; Zəhəbi, Təzkirətul-Huffaz, c. 1, s. 376; İbn Həcər, Əhməd ibn Əli, Təqribut-Təhzib, c. 2, s. 296.

2. Abdullah ibn Ləhiə ibn Uqbə- Əbu Əbdirrəhman Həzrəmi. O, hicrətin 171-ci ilində dünyadan köçmüşdür. Zəhəbi, Məhəmməd ibn Əhməd, Tarixul-İslam, c. 5, s. 182; Zəhəbi, Siyəru əlamin-Nubəla, c. 8, s. 11; Zəhəbi, Mizanul-İtidal, c. 2, s. 475; Razi, Əndurrəhman ibn Əbuhatəm, əl-Curhu vət-Tədil, c. 5, s. 145; Mizzi, Yunus ibn Əbdurrəhman, Təhzibul-Kəmal, c. 15, s. 487; Hələbi, Burhanuddin, Kəşful-Həsis, s. 160; İbn Həcər, Əhməd inb Əli, Təqribut-Təhzib, c. 1, s. 526.

3. Xalid ibn Əbuimran İfrikiyyənin qazisi, fəqih, səduq və siqə hesab olunur. Razi, Əbdurrəhman ibn Əbuhatəm, əl-Curhu vət-Tədil, c. 3, s. 345; Zəhəbi, Məhəmməd ibn Əhməd, Siyəru Əlamin-Nubəla, c. 5, s. 377; İbn Həcər, Əhməd ibn Əli, Təqribut-Təhzib, c. 1, s. 261.

4. Qasim ibn Məhəmməd Əbubəkr Qurəşi Timi siqə olub. Mədinənin yeddi fəqihindən biri hesab olunur. İbn Həcər, Əhməd ibn Əli, Təqribut-Təhzib, c. 2, s. 23.

və ya sol ələ veriləcək və o zaman ki, odun içərisindən bir şölə çıxaraq onları əhatə edib onlara qəzəblənəcək. O şölə belə deyəcək: Məni üç nəfər üçün təyin ediblər: Allahdan başqa bir məbudun olduğunu iddia edən birisi, qiyamət gününə inanmayan kəs və üsyankarlıq edən adam. Həmin şölə onların ətrafını saracaq və onları Cəhənnəmin dərinliklərinə atacaq. Cəhənnəmin körpüsü isə tükdən daha nazik və qılıncdan daha itidir. Onun üzərində itlər və tikan kolları vardır, belə ki, onlar Allahın istədiyi hər kəsi tutarlar. İnsanlar bir göz qırpımında ildırım, külək və sürətli atların sürəti ilə o körpüdən keçərlər. Mələklər isə belə deyər: İlahi, onları qoru! İlahi, onları qoru! Beləliklə, biri xilas olar, biri yaralansa da keçər, biri də odun içərisinə düşər».[1]

İmam Rza (ə) öz kəlamında Peyğəmbərin (s) Aişənin nəql etdiyi hədisdə qeyd etdiyi üç dayanacağa, yerə işarə edir. Peyğəmbər (s) o hədisdə ilk əməllərin ölçüldüyü yerdən, sonra nameyi-əməllərin paylanıldığı yerdən, daha sonra isə üçüncü yer olan Siratdan söz açır və bildirir ki, Cəhənnəmdən bir od şöləsi qalxacaqdır.

---

1. İbn Hənbəl, Əhməd, əl-Musnəd, c. 6, s. 110; Heysəmi, Əli ibn Əbubəkr, Məcməuz-Zəvaid, c. 10, s. 358; İbn Kəsir, İsmail ibn Ömər, Təfsirul-Quranil-Kərim, c. 3, s. 215; Alusi, seyid Məhmud, ruhul-Məani, c. 15, s. 123.

Həzrət Peyğəmbərin (s) sözlərindən belə başa düşülür ki, qiyamət gününün ən çətin yerləri məhz qeyd olunan üç yerdir ki, orada dost öz dostunu yaddan çıxaracaq.

Bəli, hər bir dost öz dostunu unudacaq, amma imam Rza (ə) öz şiələri üçün aydınlaşdırmaq istəyir ki, o, qiyamət günü öz ziyarətçilərini ən çətin yerlərdə unutmayacaq. O təkcə bir dost deyil, həm də mehriban bir atadır. Ata isə heç vaxt öz övladını çətin yerlərdə unutmaz.



# Bəzəntinin ikinci səhih hədisi

**Bu hədisin iki sənədi var:**

Birinci sənəd: Bu sənədi İbni Qulivey "Kamiluz-ziyarət" kitabında Əli bin Hüseyn bin Babavey (Şeyx Səduqun atası) Səddən, ibni Əbi Əl-Xəttabdan o da Bəzəntidən nəql edib.

İkinci sənəd: Bu sənədi Şeyx Səduq " Uyunu Əxbarir-Riza", "Savabul-Əmal" və "Amali" kiatblarında ibni Vəliddən, Səffardan, ibni İsadan, o da Bəzəntidən nəql etmişdir. Hədisin mətni belədir: Bəzənti deyir: "İmam Rzanın (ə) məktubun oxudum, orda belə yazılmışdır: "Şiyələrimə de ki, mənim ziyarətim Allah dərgahında min həcc ziyarətinə bərabərdir". İmam Cavaddan "Min həcc !?" -deyərək soruşdum. O həzrət buyurdu: "Bəli, and olsun Allaha! Atamın haqqını, məqamını tanıyaraq Onu ziyarət edənə min,

min həcc qədər savabı var”.[1]

Bu hədisi Təbəri “Bəşarətul-Mustafa” kitabında, Fəttal Nişapuri “Rövzatul-vaizin”də və Əllamə Məclisi “Biharul-ənvar”-da nəql etmişdilər.

## Birinci məqam

İmam Rzanın (ə) ziyarətinin savabını müəyyən etmək üçün və həcc ziyarətinin savabı ilə müqayisə etməyimizdən ötrü, həccin fəziləti barədə olan hədisləri qeyd edirik. Həccin savabını biləriksə, min, min həccə bərabər olan imam Rzanın (ə) ziyarətinin savabı bizəaydınlaşar.

Həccin fəziləti barədə olan hədislər:

Əbu Əbdullah Sadiq (ə) atasından belə nəql edir: “Kim həcci, ya ömrəni yerinə yetirmək üçün təkəbbürlükdən uzaq olaraq bu evə üz gətirərsə, günahlardan təmiz-

1. İbni Qulivey “Kamiluz-ziyarət” s. 510, Şeyx Səduq “Amali” s. 120, “ Uyunu Əxbarir-Riza” c. 1 s. 287, 10-cu hədis. Qeyd edək ki, Şeyx Tusidə bu hədisi öz sənədi ilə Məhəmməd bin Əhməd bin Davud, o da Həsən bin Əhməd bin İdris atası Əli bin Hüseyn Nişapuri, o da Əbdullah bin Musa, o da Bəzəntidən nəql edib. Şeyx Tusinin nəql etdiyi hədisin mətnində“ لمن زاره «ifadəsi« لمن يزوره “ kimi gəlib.(Şeyx Tusi, “Təhzibul-əhkam” c. 6, s. 85). Xatırladaq ki, riçal kitablarında hədisin raviləri olan Əli bin Musa Nişapuri və Əbdullah bin Musa haqda bir söz deyilməyib.

lənər və anadan yeni doğulmuş uşaq kimi günahsız olar”.[1]

Əbu Cəfər Baqir (ə) buyurub: “Həcc ziyarətçisi səfər yükünə toxunduğu andan və səfərinə görə qoyduğu hər qədəminə Allah-taala 10 gözəl əməl yazar və 10 pis əməlin pozar. Səfərin hazırlığını bitirənə və dəvə üzərinə minənə qədər, dəvənin atdığı hər addımına və səfərin bitirənə qədər Allah-taala qeyd olan savabları ona yazar. Səfəri sona yetdikdən sonra Allah-taala onun günahlarının hamısını bağışlayar və Zilhəccə, Məhərrəm, Səfər və Rəbiul-əvvəl aylarına kimi ona savab yazıb pis əmələrini əfv edər.[2]

Əbu Əbdullah Sadiq (ə) buyurur: “Həcc və ömrə zəvvarları Allahın qonaqlarıdır. Allahdan hacət istəsələr onlara verər vəəgər dərgahına dua etsələr qəbul edər.

1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 252, Şeyx Səduq, Mən lə Yahzərəhul-fəqih, c. 2, s. 205, Şeyx Tusi, Təhzibul-əhkam, c. 5, s. 23, Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 11, s. 93, Ərusi Huveyzi, Təfsir Nurus-səqəleyn, c. 1, s. 202.

2. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 254, Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 11, s. 96,.

Şəfaət istəsələr şəfaçı olar, sussalar belə Allah-taala özü onlarla söhbətə başlayar və bir dirhəm müqabilində minlərlə dirhəm alarlar”.[1]

Əbu Əbdullah Sadiq (ə) buyurur: “Bəndə evindən çıxır, sədəqə verir, Məscidul-hərəmə gəlib vacib təvafını yerinə yetirir. Sonra İbrahim məqamına qayıdıb iki rükət namaz qılır. Namazı bitərkən mələk onun sol tərəfinə gəlib çiyninə vuraraq deyir: “Ey bəndə, keçmiş günahların bağışlandı, bundan sonrakına çalış”.[2]

Əbu Əbdullah Sadiq (ə) buyurur: “Həcci ziyarət etmək mənim üçün dolu otaqla bir qızılı Allah yolunda xərcləməkdən daha üstündür”[3]

İndi isə həccin fəziləti barədə Əhli-sünnə hədislərini nəzərdən keçirək:

Həcc niyyəti ilə səfərə çıxan kəsə, Allah-ta-

1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 255, Şeyx Tusi, Təhzibul-əhkam, c. 5, s. 24, Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 11, s. 99, Əllamə Məclisi, Biharul-ənvar, c. 96, s. 16, Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, s. 153.

2. Kuleyni Məhəmməd bin Yaqub, “ƏL-Kafi” c. 4, s. 257, Amili Məhəmməd bin Həsən “Vəsailuş-şiə” c. 11, s. 115, Bürucerdi Hüseyn, “Camiu Əhadisiş-şiə” c. 10, s. 174.

3. Kuleyni Məhəmməd bin Yaqub, “ƏL-Kafi” c. 4, s. 260, Amili Məhəmməd bin Həsən “Vəsailuş-şiə” c. 11, s. 114, Bürucerdi Hüseyn, “Camiu Əhadisiş-şiə” c. 4, s. 9, Şeyx Tusi, “Təhzibul-əhkam” c. 2, s. 237.

ala dəvəsinin hər addımına yaxşı əməl yazıb pis əməlini pozur. Kəbəyə çatıb təvaf edənə, Səfa ilə Mərv arasında səy etməsinə və sacın qırxana qədər Allah-taala onun məqamın yüksəldir, günahların bağışlayır, yeni doğulmuş uşaq kimi olur. Bundan sonra yenidən saleh işlərlə özün qorumalıdır.[1]

Səhər çağından gün batana kimi, ehram halında "Ləbbeyk" zikrini deyən şəxsin günahları, günəşin qürub etməsi ilə qürub edər və yeni doğulmuş uşaq kimi olar.[2]

Miniklə həccə gedən şəxsə dəvəsinin hər addımına 70 gözəl əməl yazılar, piyada səfər edən kəsin hər addımına isə 700 gözəl əməl yazılar.

Mələklər miniklə həcc ziyarətinə gedənlərlə salamlaşır, amma piyada gedənləri ağuşuna alır[3].

Həcci ziyarət edin ki, su çirkinlikləri yu-

1. Müttəqi Hindi, Kənzul-əmmal c. 5, s. 13; Süyuti Cəlaləddin, Əd-dürrül-mənsur, s. 1, s. 210.

2. İbni Hənbəl Əhməd, Əl-müsnəd, c. 3, s. 372; Süyuti Cəlaləddin, Əl Camiul-səğir, c. 2, s. 573; Müttəqi Hindi, Kənzul-əmmal c. 5, s. 57; Təbərani Suleyman bin Əhməd, Əl Mucəmul-kəbir, c. 12, s. 69; Alusi Seyid Məhmud, Ruhul-məani, c. 17, s. 144.

3. Süyuti Cəlaləddin, Əl Camiul-səğir, s. 1, s. 325; Əd-dürrül-mənsur, c. 4, s. 355; Müttəqi Hindi, Kənzul-əmmal c. 5, s. 5.

duğu kimi, günahları yuyur.[1]

## İkinci məqam

İmam Rza (ə) ziyarətinin fəziləti barədə Bəzəntinin nəql etdiyi ikinci səhih hədisinəməzmunca bənzər olan digər bir hədisdə var. Mövzuya uyğun olduğu üçün həmən hədisi qeyd edirik:

Şeyx Kuleyni Məhəmməd bin Yahyadan, Əli bin Hüseyn Nişapuridən, İbrahim bin Əhməddən, Əbdurrahman bin Səid Məkkidən, Yahya bin Suleyman Mazanidən, o da imam Kazımdan (ə) belə nəql edir:

İmam Kazım buyurdu: "Oğlum Əlinin qəbrini ziyarət edən kəsin savabı, Allah dərgahında 70 xalis həccin savabı qədərdir". Dedim: "70 Həcc!?" Buyurdu: "Bəli, hətta 70 min Həcc" Dedim: "70 min Həcc !?" Buyurdu: "Ola bilər həcci qəbul olmamış şəxs, oğlumu ziyarət etsin, yaxud gecəsini Onun məzarı kənarında keçirtsin, belə şəxs Allahı ərşində ziyarət etmiş kimidir". Dedim: "Belə şəxs Allahı ərşində ziyarət etmiş kimidir !?" Buyurdu: "Bəli, qiyamət günündə dörd nəfər əvvəl və dörd nəfər axır da qərar tutarlar. Əvvəl də olan dörd

1. Heysəmi Əli bin Əbi Bəkr, Məcməul-zəvaid, c. 3, s. 209; Təbərani Suleyman bin Əhməd, Əl Mucəmul-ovsat, c. 5, s. 177; Süyuti Cəlaləddin, Əl Camiul-səğir, s. 1, s. 570; Müttəqi Hindi, Kənzul-əmmal c. 5, s. 10.

nəfər Nuh, İbrahim, Musa və İsa peyğəmbərlərdir. Axırda olanlar Məhəmməd, Əli, Həsən və Hüseyndir. Onların arasında bir ip uzanar və imamların qəbirlərini ziyarət edənlər bizimlə oturar, oğlum Əlinin qəbrini ziyarət edənlər ən uca vəən yaxın yerdədilər".[1]



1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 585; Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 291.



# İbni Əbi Nəcranın səhih hədisi

Şeyx Səduq atasından, Səddən, Əhməd bin Musa bin İsadan, o da bin Əbi Nəcrandan nəql edir. Əbi Nəcran deyir: "İmam Cavaddan "Atalarınızı ziyarət edənin savabı nədir", - deyərək soruşdum". Buyurdu: "And olsun ki, savabı cənnətdir". Bu hədisi Əllamə Məclisi də nəql edib.[1]

İbni Əbi Nəcranın nəql etdiyi hədisinə, oxşar məzmunlu digər iki hədisi nəql edirik.

Birinci hədis: Şeyx Səduq "Uyunu Əxbarir-Riza" və "Amali" kitablarında Məhəmməd bin İbrahim bin İshaq Mukəttib Talaqanidən, Əbdüləziz bin Yahya Cəludidən[2] Məhəm-

1. Əllamə Məclisi, "Biharul-ənvar" c. 99, s. 3.

2. Nəcaşi öz Rical kitabında (s. 240, nömrə 640) Əbdüləziz bin Yahya Cəludi haqda deyir: Əbdüləziz bin Yahya Cəludi Bəsrənin şeyxlərindən, tarixçilərindən və imam Baqirin səhabələrindən olub. O, Bəhr şəhərinin Cəlud kəndindəndir. Şeyx Tusi Fehrest ricalı kitabında (s. 191, nömrə 535): Əbdüləziz bin Yahya Cəludi barəsində deyir: Əbdüləziz bin Yahya Cəludi künyəsi Əbuhamid Bəsrəəhlindən və imamçı məzhəbindəndir. Şeyx Tusi Rical kitabında (s. 435, nömrə 6224) onu bir başa imamlardan hədis nəql edən ravilərdən hesab etməyib və onu düz danışan bilib.

məd bin Zəkəriyyə Cövhəridən,[1] Cəfər bin Məhəmməd bin Əmmardan, atasından, o da imam Sadiqdən (ə) nəql edir. İmam Sadiq (ə) buyurdu: Atalarım (İmamlar) Allahın rəsulundan (s) belə buyurduğunu nəql edirlər: "Yaxın bir zamanda canımın bir parası Xorasanda dəfn olacaq. Möminlərdən Onu ziyarət edən kəsə, Allah-taala cənnəti vacib edib, bədənin cəhənnəm oduna haram edər".[2]

Şeyx Səduq "Mən Lə Yahzuruhul-fəqih" kitabında qeyd etdiyimiz hədisi mürsəl[3] olaraq peyğəmbərdən (s) nəql edib.[4]

İkinci hədis:

İbni Quləvey "Kamiluz-ziyarət" kitabın-

1. Nəçaşi Rical kitabında (s.346, nömrə 936) deyir: Məhəmməd bin Zəkəriyyə Cövhəri Bəni Ğəlab qəbiləsindən və künyəsi də Əbu Əbdullahdır. Bəni Ğəlab qəbiləsi Bəsrədə bəni Nəsr bin Müaviyyənin nəslindəndir və onlar ancaq Bəsrə şəhərində olub. O, bizim məzhəbdən, tarixçi və geniş elmə sahib olub. İbni Davud Ricalında (s. 311) və Əllamə Xülasətul-əqvalında (156) Məhəmməd bin Zəkəriyyəni qeyd etmişdir.

2. Şeyx Səduq Uyunu Əxbarir-Riza c. 1 s. 286, Amali s. 119; Əllamə Məclisi, Biharul-ənvar c. 49, s. 284 və c. 99, s. 31.

3. Vasitəsiz imamdan nəql olunan hədis növüdür.

4. Şeyx Səduq Mən Lə Yahzuruhul-fəqih c. 2, s. 585.

da şeyxlərindən, onlar da Səd bin Əbdullah Əşəridən, Əhməd bin Məhəmməd bin İsadan, Davud Sərmidən, o da imam Cavaddan (ə) nəql edir. İmam Cavad (ə) buyurub: "Atamın qəbrini ziyarət edən kəs cənnət əhlidir".[5]



5. İbni Quləvey, Kamiluz-ziyarət, s. 505; Hürr Amili Məhəmməd bin Həsən Vəsailuş-şiə, c. 10, s. 55; Əllamə Məclisi, "Biharul-ənvar" c. 99, s. 40.

# İbni Məhziyarın birinci səhih hədisi

İbni Quləvey "Kamiluz-ziyarət"də və Şeyx Səduq "Savabul-əmal" kitabında ibni Vəliddən, Məhəmməd bin Həsən Səffardan, Əbbas bin Mərufdan, o da Əli bin Məhziyardan nəql edir. Əli bin Məhziyar İmam Cavaddan (ə) sual etdi: "İmam Rzanın məzarını ziyarət edənin savabı nədir?" İmam buyurdu: "Vallah, cənnətdir".[1]

İmam Cavad (ə) imam Əli bin Musa Ər-Rzanın (ə) ziyarətini saleh əməllərdən və axirət səadətinə yollardan biri bilir. Allah-taala buyurub: " Kişi və ya qadınlardan mömin olaraq yaxşı işlərdən (bir şey) yerinə yetirən kəslər, Cənnətə daxil olacaqlar və onlar hətta xurma çərdəyinin arxasındakı nöqtə qədər zülmə məruz qalmayacaq və haqlarından kəsilməyəcəkdir".[2]

1. İbni Qulivey Kamiluz-ziyarət, s. 510; Şeyx Səduq, Savabul-əmal, s. 98.

2. Nisa-124.

İmam Cavadın (ə) savab üçün and içməsi imam Rza (ə) ziyarətçilərinin inamları vəəqidələrində sabit olması üçündür. Ziyarətçilər bilmədir ki, imam Rzanın (ə) hərəmindəhüzurları, saleh əməl və din sütunlarının möhkəmlənməsi deməkdir. İmanla, saleh əməl cənnətə daxil olmağın şərtidir.

## Əli bin Əsbatın səhih hədisi

Şeyx Səduq "Uyunu Əxbarir-Riza" kitabında ibni Vəliddən, Məhəmməd bin Həsən Səffardan, Məhəmməd bin Hüseyn bin Əbil-xəttabdan, o da Əli bin Əsbatdan belə nəql etdiyin deyir: İmam Cavaddan (ə) soruşdum: "Xorasanda atanızı ziyarət edən kəsin savabı nədir?" Buyurdu: "Vallah cənnətdir! Vallah cənnətdir!"[1]

İbni Məhziyardan nəql olan səhih hədis Quran ayəsi ilə birgə Əli bin Əsbatın hədisinə bənzəyir. Həmən Quran ayəsi, ona oxşar digər ayəni xatırladır. Digər ayədə Allah-taala buyurur: "Kim pis iş görsə, yalnız onun miqdarında cəzalandırılacaq və kişi və ya qadınlığından asılı olmayaraq, kim mömin halda yaxşı iş görsə, belələri Cənnətə daxil olacaq, orada onlara saysız-hesabsız (əməllə müqayisə edilmədən və möminin hesabından xaric həddə) ruzi veriləcəkdir."[2]

1. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1, s. 288.

2. Ğafir-40.

Əli bin Əsbatın səhih hədisində “Vallah! cənnətdir” cümləsinin təkrar olması hədisin məzmunun təkid edir. Belə görsənir ki, İmam Cavad (ə) dəfələrlə buna oxşar hədis söyləyib və bəzilərində şəkk olduğu üçün imam “Vallah! cənnətdir” kimi təkidi cümlələrdən istifadə edib. İndiki hədisləəvvəl ki  hədis arasında fərq, yalnız cənnət kəlməsinin təkrarıdır. Bu da ziyarətin savabı olaraq cənnətin əhəmiyyətli olması və imanla, saleh əməl nəticəsində qazanıla bilməsinə işarədir.



# Həsən Vəşşanın səhih hədisi

Şeyx Səduq ibni Validdən, Səffardan, Əhməd bin Məhəmməd bin İsadan, o da Həsən bin Əli Vəşşadan nəql edir ki, imam Rza (ə) buyurub: "Mən məzlumcasına zəhərlə qətlə yetiriləcəm. Kim haqqımı tanıyaraq məni ziyarət etsə, Uca Allah onun keçmiş və gələcək günahların bağışlayar".[1]

Hədisdə iki məqam var.

## Birinci məqam:

Həsən Vəşşanın səhih hədisi bildirir ki, imam Rzanın (ə) ziyarəti keçmiş və gələcək günahların bağışlanmasına səbəb olur. Burda günahların insana təsiri və ziyanı barədə söz açmağımız gərəkdir, belə ki günahın təsiri bəlli olduqdan sonra, ziyarətlə onun bağışlanması imam Rzanın (ə) ziyarətinin əzəmətini bizə aydın edir.

---

1. Şeyx Səduq "Uyunu Əxbarir-Riza" c. 1 s. 292.

Günah insanı Allahdan uzaqlaşdırır. Günah barədə bəzi hədisləri qeyd edirik:

İmam Sadiq (ə) buyurub: "Damar tutulsa, ayağın daşa dəysə, başın ağrısa, ya xəstələnsən bunların hamısı günahların nəticəsidir. Allahın bu haqda buyurduğu belədir: "Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O, (hələ) onların çoxundan keçir.[1]"[2]

İmam Baqir (ə) buyurub: "Ayağın daşa dəyməsi belə günahın nəticəsidir və Allah-taala hələ onların bir çoxundan keçir"[3]

Əbu Usamə imam Sadiqdən (ə) belə buyurduğun nəql edir: "Allahın gecə-gündüz hücumundan, Ona pənah aparın". Dedim: "Allahın hücumu nədir?" Buyurdu: "Günahların cəzasıdır"[4]

İmam Baqir (ə) buyurub: "İnsan günah

1. Şura-30.

2. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 269; Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 15, s. 299; Təbərsi Fəzl bin Həsən, Məkarimul-əxlaq, s. 357; Əllamə Məclisi, Biharul-ənvar, c. 70, s. 15; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13, s. 337.

3. Kuleyni Məhəmməd bin Yaqub, "ƏL-Kafi" c. 2, s. 269.

4. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi c. 4, s. 269; Hürr Amili Məhəmməd bin Həsən Vəsailuş-şiə,c. 15, s. 258; Nuri Mirzə Hüseyn, Müstədrəkul-vəsail, c. 11, s.336; Şeyx Mufid, Əl Əmali, s. 184; Əllamə Məclisi, "Biharul-ənvar" c. 70, s. 360 .

edərkən ruzidən məhrum olur”.[1]

İmam Sadiq (ə) buyurub: “İnsan günah edəndə qəlbində qara nöqtəmələ gəlir. Tövbə etsə, nöqtə təmizlənir vəəgər yenidən günah etsə, qəlbindəki qara nöqtə daha da çoxalır, günah nəticəsində bütün qəlbi qaralarsa, ona nicat tapmaq mümkün olmur”.[2]

Günahın təsirin, zərərin bildikdən sonra, Allah-taalanın bu təsirləri məhv etmək üçün qoyduğu yolları da bilməyimiz gərəkdir. Həqiqətdə bəndənin günahı Uca Allaha bir ziyan yetirmir və günahkarın cəzasını verməyə Allahın ehtiyacı yoxdur, bu səbəbdən Onun rəhməti həmişə qəzəbin qabaqlayır. Rəhmətinin əlamətləri günahların bağışlanması üçün qərar verdiyi vasitələrdir. Tövbə, peşmançılıq, peyğəmbəri əziz tutmaq, Ona və Əhli-beytinə yaxın olmaq, sağ ikən və vəfatlarından sonra onları ziyarət etmək kimi əməllər həmən vasitələrdəndir. Quran və sünnət, Allahın qiyamət günündə peyğəmbər və Onun Əhli-beytinin şəfaətinin qəbul olmasını təsdiq

1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 2, s. 270; Əllamə Məclisi, Biharul-ənvar, c. 70, s. 313; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13 s. 340.

2. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 2, s. 271; Hürr Amili Məhəmməd bin Həsən Vəsailuş-şiə,c. 15, s. 302; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13 s. 366.

edir. Onlar nicat gəmisinə bənzədilmişdir ki, hər kəs o gəmiyə minsə nicat tapar. Onlardan yapışmaq ancaq Onların diriliyinə aid deyil və dünyaların dəyişəndən sonra belə, gələcək nəsil Onların nicatından binəsib qalmır. Onlar qiyamətədək bəşəriyyətin nicatına səbəb və Allahın qəbul etdiyi şəfaçıdırlar. Təbii ki, Allahın istədiyi bəndələrə şəfaçılıq edib, günahın  təsirlərindən nicat verərlər. Əgər Allahın peyğəmbər və Əhli-beytinə inayət etdiyi bu fəzilətlər ancaq onların sağlığına şamil olsaydı o zaman, "Hər kəs onlardan yapışsa nicat tapar" -sözünün mənası nə olacaqdı?

Allah belə iradə edib ki,  peyğəmbər (s) və məsum imamların (ə) ziyarəti günahların bağışlanmasına səbəb olsun, imam Rza (ə) da qeyd etdiyimiz səhih hədisdə bu həqiqəti bəyan etmişdir.

## İkinci məqam:

İmam Rzanın (ə) ziyarətinin fəzilətinə dair bir necə hədis nəql olunub ki, məzmunca Həsən Vəşşanın səhih hədisinə oxşardır. Həmən hədislərin bir necəsini nəql etməklə mövzunu təkmil edirik.

Birinci hədis:

Şeyx Səduq Əbu Əli Əhməd bin Ziyad Həmədanidən, Əli ibni İbrahim bin Ha-

şimdən, Yaqtinidən,[1] Məhəmməd bin Suleyman Misridən,[2] atasından, İbrahim Əbi

1. Nəcaşı Ricalında ( s. 333, nömrə 896) onun barəsində deyir: Məhəmməd bin İsa bin Ubeyd bin Yəqtin bin Musa, Əsəd bin Xuzeymə tayfasındandır. O, bir çox elmi kitabların və hədislərin sahibidir. O, imam Cavadla (ə) məktublaşmasını, üzbəüz danışıqlarını nəql edib. Şeyx Tusi Fehrest kitabında (s. 216 nömrə 611) buyurur: " Bin Yəqtin zəifdir və Əli bin Babavey onu "Nəvadirul-hikmə" kitabında olan ravilərdən istisna edib".
Lakin Bin Yəqtinin istisna olması onun zəif ravilərdən olduğuna görə deyil, bəlkə bu istisna fehrestə görədir, yani şeyx Səduq Nəvadirul-hikmə kitabında ibni Yəqtini istisna etməsi onun mürsəl sənədlə rəvayət etməsinə görədir.

2. Şeyx Tusi Fehrest kitabında (s. 206, nömrə 987) onu, Məhəmməd bin Suleyman Deyləmi kimi qeyd edib. Nəcaşi Ricalında (s. 365, nömrə 987) onu, Məhəmməd bin Suleyman bin Əbdullah Deyləmi kimi qeyd edib və deyib ki, O, çox zəifdir və ona etimad olunmaz. Bərqi Ricalında (s. 48) onu, imam Kazımın (ə) səhabələrindən sayıb və adın Məhəmməd bin Suleyman Deyləmi Misri kimi qeyd edib. Və 53-cü səhifədə onu, imam Rzanında (ə) səhabələrindən bilib. İbni Ğəzairi Ricalında (s. 91, nömrə 128) onun haqqında deyir: Məhəmməd bin Suleyman bin Zəkəriyyə Deyləmi Əbu Əbdullah hədis söyləməkdə zəifdir və əqidədə həddi aşanlardandır, onun nəql etdiyi hədislərə etina olmaz. Şeyx Tusi Ricalında (s. 285, nömrə 4142) birdəfə onu, Məhəmməd bin Suleyman Deyləmi kimi imam Sadiqin (ə) səhabələrindən, bir dəfə də (5109 nömrədə) imam Kazımın (ə) səhabələrindən yazıb və haqqında deyib ki, Məhəmməd bin Suleyman Deyləmi kitab sahibi və əqidədə həddini aşanlardandı. Kitabının başqa yerində isə (s. 363, nömrə 5389) onu, imam Rzanın (ə) səhabələrindən olduğunu qeyd edib və zəif olduğunu vurğulayıb.

Həcərdən,[1] Qəbizədən, Cabir Cöfidən,[2] imam Baqirdən (s), O da atasından, O da cəddindən, imam Əlidən (ə) peyğəmbərin (s) belə söylədiyini buyurur: "Qısa bir zamanda Xorasan torpağında canımın bir parası dəfn olacaq. Qəmgin və müsibətdə olan hər bir şəxs onu ziyarət edərsə, Allah onun qəmin aparar, hər günahkar onu ziyarət edərsə, Allah onun günahların bağışlayar".[3]

## İkinci hədis:

Şeyx Səduq Məhəmməd bin İbrahimdən bin İshaq Mukəttib Talaqanidən, Əbdulə-

1. Nəcaşı Ricalında (s. 14, nömrə 12) onun haqqında deyir: "İbrahim bin Məhəmməd bin Əbi Yahya, Əsləm Mədəni tayfasındandır. O, imam Baqir (ə) və imam Sadiqdən hədis nəql edib və Onların səhabələrindəndir. Əhli sünnət onu zəif bilir." Şeyx Tusidə onu, Fehrest kitabında qeyd edib.

2. Nəcaşi Ricalında (s. 128, nömrə 332) onun haqqında deyir: "Cabir bin Yəzid Əbu Əbdullah... pərişan olub və bizim şeyximiz Əbu Əbdullah Məhəmməd bin Məhəmməd bin Noman bizə çox şeirlər oxuyardı ki, onun pərişanlığı haqqında idi. Halal, haram barədə ondan az hədis nəql edirlər".

3. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 288; Amali, s. 181; (Qeyd edək ki, Şeyx Səduq bu hədisi "Mən Lə Yahzuruhul-fəqih" kitabında c. 2, s. 583-də mürsəl sənədlə nəql etmişdir)
Fəttal Nişapuri,Məhəmməd bin Həsən, Rovzatul-vaizin, s. 234

ziz bin Yahya Cəludidən,[1] Məhəmməd bin Zəkəriyyə Cövhəridən, Cəfər bin Məhəmməd bin Əmmardan, atasından, imam Sadiqdən (ə) atalarından, Onlar da Allahın Elçisindən (s) belə buyurduğunu nəql edirlər: "Qısa bir zamanda Xorasan torpağında canımın bir parası dəfn olacaq. Onu ziyarət edən hər bir möminə Allah-taala cənnəti vacib edib, bədənin cəhənnəm oduna haram edər". [2]

## Üçüncü hədis:

Şeyx Səduq Əli bin Əbdullah Vəraqdan, Səd bin Əbdullah bin Əbi Xələfdən, İmran bin Musadan, Həsən bin Əli bin Noman-

1. Nəcaşı Ricalında (s. 240, nömrə 640) onun barəsində deyir: "Əbdüləziz bin Yahya bin Əhməd bin İsa Cəludi, İzdi, Bəsri şeyxlərdən və Bəsrənin tarixçilərindən olub. O, imam Baqirin (ə) səhabələrindən olub. Bəhr şəhərinin Calud kəndindəndir." Şeyx Tusi "Fehrest" kitabında (s. 191, nömrə 535) onun barəsində buyurur: " Əbdüləziz bin Yahya bin Əhməd bin İsa Cəludi künyəsi Əbu Əhməddir, Bəsrədəndir, şiə məzhəbindəndir." Şeyx Tusi Ricalında isə (s. 435, nömrə 6224) onu imamlardan bir başa hədis nəql edənlərdən saymayıb və buyurur: "Əbdul Əziz bin Yahya Cəludi, Əbu Əhməd Bəsrəli, düz danışandı".

2. Şeyx Səduq "Amali" s. 119, və "Uyunu Əxbarir-Riza" c. 1 s. 286; Fəttal Nişapuri,Məhəmməd bin Həsən, Rovzatul-vaizin, s. 233; Qumi Məhəmməd bin Həsən, Əl Əqdun-nəzid vəd-durrul-fərid, s. 32; Əllamə Məclisi, "Biharul-ənvar" c. 49, s. 284; Bürucerdi Hüseyn, "Camiu Əhadisiş-şiə" c. 12 s. 591; Bu hədisi Şeyx Səduq, Mən Lə Yahzuruhul-fəqih kitabında (c. 2, s. 585) mürsəl olaraq qeyd etmişdir.

dan,[1] Məhəmməd bin Fuzeyl bin Ğəzvan Zəbidən,[2] Əbdurrəhman bin İshaq bin Haris Vasitidən, Noman bin Səd Kufidən Əmirəl-mömininin belə söylədiyini nəql edir: “Tez bir zamanda mənim övladlarımdan biri Xorasan vilayətində zülm olunaraq zəhərlə qətlə yetiriləcək. Onun adı mənim adım, atasının adı isə İmranın oğlu Musanın (ə) adı ilədir. Bilin ki, onu qürbətdə ziyarət edənin, Allah-taala günahların bağışlayar”.[3]

1. Nəcaşi Ricalında (s. 40, nömrə 81) deyib ki, O, Bəni Haşimin azad etdiyi quldur, sonra onu düz danışanlardan bilib. Şeyx Tusi Fehrest kitabında ( s. 106, nömrə, 201) deyir:”Həsən bin Əli bin Noman Bəni Haşimdən sayılır, faydalı “Nəvadirul-hədis” kitabı onundur. Bizim məzhəbdən olan Əbul Müfəzzəl, ibni Bəttəhdən, Əhməd bin Əbi Əbdullahdan, Səffardan, bu kiatabdan xəbər veriblər”. Şeyx Ricalında (s. 398, nömrə 5834) onu, imam Əskərinin (ə) səhabələrindən sayıb və adın Həsən bin Əli bin Noman Kufi olaraq gətirib.

2. Şeyx Ricalında (s. 292, nömrə 4257) onun barəsində deyir: “Məhəmməd bin Fuzeyl bin Ğəzvan Zəbi, Əbu Əbdurrahmanın nəslindəndir və düz danışandır”.

3. Şeyx Səduq, Amali s. 181; Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 287; Şeyx Səduq həmən hədisi Noman bin Səddən Əmirəl-mömininindən (ə) nəql edir. (Mən Lə Yahzuruhul-fəqih, c. 2, s. 584); Fəttal Nişapuri,Məhəmməd bin Həsən, Rovzatul-vaizin, s. 234; Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 14, s. 554; Əllamə Məclisi, Biharul-ənvar, c. 49, s. 286.

## Dördüncü hədis:

İbni Quləvey atasından, Səd bin Əbdullah Əşəridən, Əli bin İbrahim Cəfəridən, Həmdan bin İshaq Dəsvaidən, o da imam Cavaddan (ə) belə nəql edir: İmam Cavada (ə) dedim: "Tusda atanı ziyarət edənin savabı nədir?" Buyurdu: "Kim atamın qəbrin ziyarət etsə Allah-taala onun keçmiş və gələcək günahlarını bağışlayar". Həmdan deyir: "İmamın bu sözündən sonra Əyyub bin Nuh bin Dərracı görüb ona dedim ki, ey Əbulhüseyn! Mən mövlam Əbu Cəfərdən (imam Cavad), "Kim Tusda atamın qəbrin ziyarət etsə Allah-taala onun keçmiş və gələcək günahlarını bağışlayar",- buyurduğun eşitdim. Əyyub dedi: "İstəyirsən bu hədisdən daha artığın deyim?" Dedim: "Bəli" Dedi: "Əbu Cəfərdən (ə) belə dediyin eşitdim: "Kim Tusda atamın qəbrin ziyarət etsə, Allah-taala onun keçmiş və gələcək günahlarını bağışlayar və qiyamət günündə peyğəmbərin (s) minbəri qarşısında ona minbər qoyular, canlıların hesabı bitənə kimi o minbərdəəyləşər".[1]

1. İbni Qulivey "Kamiluz-ziyarət" s. 506; Hürr Amili Məhəmməd bin Həsən "Vəsailuş-şiə" c. 10, s. 355; Əllamə Məclisi, "Biharul-ənvar" c. 99, s. 40.



# Əbduləzim Həsənin səhih hədisi

Şeyx Səduq ustadı Məhəmməd bin Əbilqasimdən (Maciləvey ləqəbində), Əli bin İbrahimdən, atasından, Əbduləzim Həsənidən, o da Əbu Cəfərdən (imam Cavad (ə)) nəql edir. İmam Cavad (ə) buyurub: "Atamın haqqına mərifəti olaraq Tusda ziyarət edəni, Allah-taala cənnətə aparar".[1]

Ziyarət maddi bədənlə imamın (ə) qəbri kənarında hazır olmaqdan ibarət deyil. Hədisdə ziyarətin adi səyahətdən fərqli olan cəhəti; qəlbən inamın olması kimi göstərilib. Belə ki, bizdən, Əhli-beytin dəvət etdiyi əqidədə möhkəm olmağımız tələb olunur.

1. Şeyx Səduq "Uyunu Əxbarir-Riza" c. 1 s. 286,.

## Hərəvinin birinci səhih hədisi

Şeyx Səduq ustadı bin Əli Maciləveydən, Əli bin İbrahimdən, atasından, o da Əbu Səlt Hərəvidən nəql edir ki, imam Rza (ə) buyurub: "Mən məzlumcasına zəhərlənərək öldürülüb, Harunun kənarında dəfn olunacam. Allah-taala məzarımı şiələrin və Əhli-beytimin ziyarətgahı qərar verəcək. Kim məni qürbətdə ziyarət etsə, mütləq qiyamət günündə onun ziyarətinə gələrəm. And olsun Məhəmmədi yaratdıqları içərisində seçən və haqq olaraq göndərən Allaha ki, sizdən qəbrimin kənarında iki rükət namaz qılan, qiyamət günü bağışlanar. And olsun Məhəmməddən sonra bizi imamətə, vəliliyə seçən Allaha ki, qəbrimi ziyarət edənlər qiyamət günü Allah dərgahında ən hörmətli dəstədəndir. Məni ziyarət edən hər mömin asimandan yağan bir qətrə yağışla əziyyətə düşsə belə, Allah-taala onun cəsədin atəşə haram edər".[1]

1. Şeyx Səduq "Uyunu Əxbarir-Riza" c. 1 s. 248.

Əbu Səltdən nəql etdiyimiz hədisə məzmunca yaxın olan digər iki hədisi qeyd edirik.

## Birinci hədis:

Şeyx Səduq "Amali" kitabında Məhəmməd bin Musa Mütəvəkkildən, Məhəmməd bin Cəfər Əsədi Kufidən,[1] Səhl bin Ziyaddan,[2]Əbdüləzim Həsənidən belə nəql

1. Nəcaşi Ricalında (s. 273, nömrə 1020) onun barəsində deyir: "Məhəmməd bin Cəfər bin Ovn Əsədi Əbulhüseyn Kufi Rey şəhərinin sakinidir və ona, Məhəmməd bin Əbi Əbdullah deyillər. O, doğru danışan və doğru hədis söyləyəndir, amma bəzən zəif hədiscilərdən də nəql edərdi və cəbr ilə təşbihə inanırdı". Şeyx Tusi öz Ricalında (s. 229, nömrə 660 və s. 439, nömrə 6278) onu xatırladıb vəəbvabdan olduğunu deyib.

2. Nəcaşi Ricalında (s. 185, nömrə 490) onun haqqında yazarkən hədis nəql etməkdə zəif və etimadlı şəxs bilməyib. Şeyx Tusi qeyd edib ki, Əhməd bin Məhəmməd bin İsa, Səhl bin Ziyadın ğuluv əhli, yalançı olduğuna şəhadət verib Qum şəhərindən qovub. Şeyx Tusi Fehrest kitabında (s. 142, nömrə 339) onun barəsində belə buyurur: "Səhl bin Ziyad Adəmi Razi, künyəsi Əbu Səiddir və zəifdir"; Bərqi öz ricalında (s.58) bir yerdə onu imam Hadinin (ə) səhabələrindən bilib adın "Səhl bin Ziyad Əbu Səid Adəmi Razi"- kimi yazıb, başqa bir yerdəsə (s. 60) onu imam Əskərinin (ə) səhabələrindən sayıb və adın "Səhl bin Ziyad Adəmi" kimi qeyd edib. Kəşşi qeyd edib ki, Fəzl bin Şazan onu bəyənməzdi və axmaq bir şəxs kimi tanıyardı (İxtiyarı mərifətir-rical, s. 566). İbni Ğəzairi Ricalında deyir:"Səhl bin Ziyad Əbu Səid Adəmi, Razi doğurdan da zəif və dini fasid olub, Əhməd bin İsa Əşəri onu Qum şəhərindən qovub və camaatı ondan hədis söyləməyə çəkindirib. O, mürsəl və tanımayan şəxslərdən hədislər nəql edərdi."Şeyx Tusi- Ricalında (s. 375, nömrə 5556) bir yerdə onu imam Cavadın (ə) səhabələrindən sayaraq belə deyib: "Səhl bin Ziyad Adəmi, künyəsi Əbu Səid, Rey şəhərindəndir". Başqa yerdə isə (s. 384, nömrə 5699) onu imam Hadinin (ə) səhabələrindən sayaraq deyib: "Səhl bin Ziyad Adəmi, künyəsi Əbu Səid, düz danışandır".

edir: İmam Cavaddan (ə) bu cür söylədiyin eşitdim: "Atamın ziyarətinə gələn hər bir şəxs səfərində soyuqdan ya istilikdən əziyyətə düşərsə, Allah-taala onun canın cəhənnəm atəşinə haram edər".[1]

## İkinci hədis:

Şeyx Səduq "Uyunu Əxbarir-Riza" kitabında, Əhməd bin Əhməd Sənanidən, Məhəmməd bin Cəfər Əsədi bin Ziyaddan, Səhildən, Əbdüləzim Həsənidən, Əli bin Məhəmməd Əskərinin (ə) belə buyurduğunu nəql edir: "Qum və Ave[2] şəhərinin əhli ceddim Əli bin Musa Ər-Rzanı (ə) Tusda ziyarət etdikləri üçün bağışlanıblar. Bilin ki, kim Onu ziyarət edərkən səfərində asimandan düşən bir qətrə yağışla belə, əziyyətə düşərsə, Allah-taala onun canın cəhənnəm oduna haram edər».[3]

1. Şeyx Səduq "Amali" s. 725; Əllamə Məclisi, "Biharul-ənvar" c. 99, s. 36.

2. Save şəhərin yaxınlığında kiçik şəhərdi ki, əhalisi şiyədir ( Həməvi Yaqut bin Əbdullah, Mucəmul-bildan, c. 1, s. 5).

3. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 291; Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 14, s. 558; Əllamə Məclisi, Biharul-ənvar, c. 99, s. 38.

## Hərəvinin ikinci səhih hədisi

Şeyx Səduq Məhəmməd bin Musa Mütəvəkkildən, Əlidən, atasından, Əbu Səlt Hərəvidən imam Rzanın (ə) belə buyurduğun nəql edir: “Vallah, bizlər öldürülüb şəhid olaraq dünyadan köçərik”. Soruşdular ki, ey peyğəmbərin övladı, səni kim qətlə yetirəcək? imam buyurdu: “Zəmanəmin ən pis insanı. O, məni zəhərlə öldürəcək və həqir bir evdə, qürbətdə dəfn edəcək. Bilin ki, hər kəs məni qürbətdə ziyarət etsə, Allah-taala ona 100 min şəhidin, 100 min doğrucuların, 100 min həccin və ömrənin və 100 min cihad əhlinin savabını yazar. Allah-taala onu bizim zümrəmizdə dirildər və cənnətin uca yerlərində bizimlə bir olar”.

Bu hədisi Şeyx Səduq “Mən Lə Yahzuruhul-fəqih” kitabında sənədi ilə Əbu Səlt Hərəvidən nəql edib.[1] Əllamə Məclisi, “Biharul-ənvar”da və Hürr Amili “Vəsai-

1. Şeyx Səduq, Mən Lə Yahzuruhul-fəqih, c. 2, s. 585.

luş-şiə" kitabında həmən hədisi nəql edib-lər.[1]

Hədis barədə iki məqama diqqət yetirək:

## Birinci məqam

Yeridir ki, Əbu Səlt Hərəvinin hədisinə bənzər olan Həmzə bin Həmranın səhih hədisi barədə təhqiq edək. Şeyx Səduq "Mən Lə Yahzuruhul-fəqih" kitabında sənədi ilə Həmzə bin Himrandan imam Sadiqin (ə) belə buyurduğun nəql edir: "Nəvəm Xorasanda, Tus adlı şəhərdə qətlə yetiriləcək. Nəvəmin haqqın, məqamın tanıyaraq ziyarət edəni -böyük günah sahibi olsa belə- qiyamət günündəəlindən tutub cənnətə daxil edərəm". Dedim: "Canım sənə fəda! Onun haqqın tanımaq necədir?" Buyurdu: "Bilsin ki, Ona itaət etmək vacibdir və O, qərib və şəhiddir. Onu tanıyaraq ziyarət edənə, Allah-taala peyğəmbərlə (s) birgə canlarını tapşıran 70 şəhidin savabın verər.[2]

1. Əllamə Məclisi, Biharul-ənvar, c. 49, s. 283; Hürr Amili Məhəmməd bin Həsən "Vəsailuş-şiə" c. 14, s. 568.

2. Şeyx Səduq, Mən Lə Yahzuruhul-fəqih, c. 2, s. 584; Fəttal Nişapuri,Məhəmməd bin Həsən, Rovzatul-vaizin, s. 235; Əllamə Məclisi, "Biharul-ənvar" c. 99, s. 35; Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 14, s. 554.

## İkinci məqam

Hərəvinin ikinci səhih hədisində qeyd olunmuşdu ki, Allah-taala imam Rzanın (ə) zəvvarına 100 min cihad əhlinin savabın verər. Münasib bildik ki, hədislərəəsasən cihadın savabın açıqlayaq və bununla imam Rzanın (ə) ziyarətinin əzəmətin dərk edək.

1- Allah elçisindən (s) rəvayət olub ki, cənnətin "Cihad əhli" adlı qapısı var. Mücahidlər şəmşirləri ilə üzlərinə acılan qapıdan daxil olarlar və insanlar, mələklər onlara xoşgəldin deyərlər.[1]

2- Peyğəmbər (s) buyurub: "Bütün bəndələrin əməlləri mücahidlərin əməli ilə müqayisə də, qağayının dimdiyində dəryadan götürdüyü suya bənzəyir".[2]

3- İmam Baqir (ə) buyurub: "Bir kişi peyğəmbərin yanına gəlib dedi ki, mən cihadın aşiqiyəm. Peyğəmbər (s) buyurdu: "Allah yolunda cihad et, çünki cihadda ölsən, şəhidsən və Allah yanında həm diri, həm də ruzilisən. Əgər təbii halda ölərsənsə, Allah dərgahında əcrin var, əgər sağ

1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 5, s. 2; Şeyx Səduq, Amali, s. 679 və Savabul-əmal, s. 189; Şeyx Tusi, Təhzibul-əhkam, c. 6, s. 123; Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 15, s. 10; Əllamə Məclisi, "Biharul-ənvar" c. 34, s. 66.

2. Müttəqi Hindi Əlauddin Əli, Kənzul-əmmal, s. 316

qayıdarsansa, günahlardan təmizlənmiş halda qayıdarsan”.[1]

4- “Müstədrəkul-vəsail”də nəql olunur ki, Allaha ibadət üçün dağa çəkilən bir şəxsi, ailəsi peyğəmbərin (s) yanına gətirdi. Peyğəmbər (s) onu bu işdən çəkindirdi və buyurdu: “Bir müsəlman cihad meydanlarının birində müqavimət göstərsə, 40 il ibadətdən fəzilətlidir”.[2]

5- Allahın elçisi (s) buyurub: “Vətənin qoruyan, ya Allah yolunda cihad edən hər kəsə, Allah-taala atdığı addımına 70 min saleh əməl yazar və 70 min günahın pozar, maqamı isə 700 min dərəcə ucalar”.[3]

6- Allahın elçisi (s) buyurub: “Allah yolunda cihad edən, evinə qayıdana kimi, gecələri oyaq qalıb ibadət edən və gündüzləri oruc tutan abidə bənzəyir”.[4]

---

1. Əyaşi Məhəmməd bin Məsud, Təfsirul-Əyaşi, c. 1, s. 206; Nuri Mirzə Hüseyn, Müstədrəkul-vəsail, c. 11, s.10; Əllamə Məclisi, Biharul-ənvar, c. 98, s. 14; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13 s. 15.

2. Hürr Amili Məhəmməd bin Həsən, Vəsailuş-şiə, c. 11, s. 21; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13, s. 7.

3. Şeyx Səduq, Savabul-əmal, s. 293; Əllamə Məclisi, Biharul-ənvar, c. 73, s. 372; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13 s. 13.

4. Nuri Mirzə Hüseyn, Müstədrəkul-vəsail, c. 11, s.13.

7- Allahın elçisi (s) buyurub: "Allah yolunda cihad edənin bir günü, evində 70 il ibadət edəndən üstündür. Allah yolunda bir gün Allahdan qeyrisinin yolunda olan 1000 gündən üstündür".[1]

8- Allahın elçisi (s) buyurub: "Mələklər Adəm övladının bütün saleh əməllərini hesab edirlər, yalnız mücahidlərin savabını saymaqda acizdirlər".[2]



1. Əbu Hənifə Qazi Nöman bin Məhəmməd, Şərhul-əxbar, c. 1, s. 327; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13, s. 8.

2. Nuri Mirzə Hüseyn, Müstədrəkul-vəsail, c. 11, s.13; Bürucerdi Hüseyn, Camiu Əhadisiş-şiə, c. 13 s. 8.


برادران
برادران

# İbni Məhziyarın ikinci səhih hədisi

İbni Məhziyar deyir:

Əbu Cəfərə (ə) ərz etdim: "Canım sənə fəda! İmam Rzanın (ə) ziyarəti daha fəzilətlidir ya imam Hüseynin (ə) ? İmam buyurdu: "Atamın ziyarəti daha fəzilətlidir. Çünki imam Hüseyni (ə) hamı ziyarət edir, amma atamı xas şiələr ziyarət edir".[1]

Şiə kəlməsi, Fatimi və Zeydi kimi cərəyanlara şamil olur, amma biz şiə dedikdə ancaq 12 imamçını nəzərdə tuturuq və hədislərə əsasən məhz 12 imamçılar nicat əhlidir. Tarixə əsasən şiə adı Əli bin Musa Ər-Rzaya və ondan sonrakı imam Cavad, imam Hadi, imam Əskəri və imam Məhdiyə (Allah zühurun tezləşdirsin) əqidələri olanlara deyilib. Bu səbəbdən imam Rzanı (ə) ziyarət edən xas şiələrdən hesab olur, yani 12 imamçı sayılır. Əlbəttə bu şərtlə ki, ziyarətində imam Rzaya (ə) mərifəti olsun.

1. Kuleyni Məhəmməd bin Yaqub, ƏL-Kafi, c. 4, s. 584; İbni Qulivey, Kamiluz-ziyarət, s. 510; Şeyx Səduq Uyunu Əxbarir-Riza, c. 1 s. 292.

# Davud Cəfərinin səhih hədisi

Şeyx Səduq "Uyunu Əxbarir-Riza" kitabında Məhəmməd bin Musa Mütəvəkkildən, Əli bin İbrahimdən, atasından, Əbu Haşim Davud bin Qasim Cəfərinin, imam Cavaddan (ə) belə eşitdiyi nəql olunur: " Tusda, iki dağın arasında behiştdən torpaq gətirilib. Ziyarət üçün o torpağa qədəm qoyan, qiyamət günü cəhənnəm atəşindən amanda olar".[1]

Peyğəmbərimiz (s) buyurub: "Xorasan torpağında canımın bir parası dəfn olacaq. Qəmgin və müsibətdə olan hər bir şəxs onu ziyarət edərsə, Allah onun gəmin aparar, hər günahkar onu ziyarət edərsə, Allah onun günahların bağışlayar".[2]

İmam Rzanı (ə) mərifətlə ziyarət etmək dünya və axirətimiz üçün xeyirlidir. Dünya xeyri hədisdə qeyd olunduğu kimi qəm və müsibətin aradan getməsidir, axirət xey-

1. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 286.

2. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 288.

ri isəgünahların bağışlanması və qiyamət günü əmin-amanlıqda qalmaqdır. İmam Rzanın (ə) ziyarətçilərinəən böyük müjdə cəhənnəm atəşindən nicat tapmalarıdır.



# Yasir Xadimin səhih hədisi

Şeyx Səduq "Uyunu Əxbarir-Riza" kitabında Əhməd bin Ziyad bin Cəfər Həmədanidən, Əli bin İbrahimdən, atası İbrahim bin Haşimdən, Yasir Xadimdən nəql edir ki, imam Rza (ə) buyurdu: "Bizdən başqa (14 məsumdan), heç bir kəsin ziyarəti üçün səfərə çıxılmaz. Bilin ki, mən səssiz-səmirsiz zəhərlənərək öldürülüb, qərib bir diyarda dəfn olunacam. Ziyarətimə gələn şəxsin duası qəbul, günahları bağışlanmış olar".[1]

1. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 285.

# İbni Fəzzalın müvəssəq[1] hədisi

Şeyx Səduq "Uyunu Əxbarir-Riza" kitabında Əhməd bin Həsən Qəttandan, Məhəmməd bin İbrahim Lisidən, Məhəmməd bin İbrahim bin İshaq Mukəttib Talaqanidən, Məhəmməd bin Bikran Niqaşdan, Əhməd bin Məhəmməd bin Səid Həmədanidən, Əli bin Həsən bin Əli bin Fəzzaldan, atasından, o da imam Rzadan (ə) belə nəql edir. İmam Rza (ə) buyurdu: "Xorasanda bir parça torpaq var ki, gələcəkdə mələklərin get gəl yeri olacaq. Mələklər sur çalınan günə qədər dəstə-dəstə nazil olar və asimana qalxar". Sual etdilər ki, ey peyğəmbər övladı, o hansı torpaqdır? İmam Buyurdu: "O torpaq Tus şəhərindədir. And olsun Allaha ki, ora cənnət bağındandır, orda məni ziyarət edən, peyğəmbəri (s) ziyarət etmiş kimidir və Allah-taala ona min həccin və ömrənin savabın verər, mən və atalarım qiyamət

1. Müvəssəq səhih hədislərdən sayılır.

günü onun şəfaətini edərik".[1]

Şeyx Səduq bu hədisi "Amali" kitabında ustadı Məhəmməd bin İbrahim Talaqani-dən nəql edib. Həmçinin "Mən Lə Yahzu-ruhul-fəqih" kitabında Həsən bin Əli bin Fəzzaldan da nəql edib.[2]

Şeyx Tusi də "Təhzibul-əhkam"da bu hə-disi sənədi ilə Məhəmməd bin Səid Həmə-danidən nəql edib.[3]

1. Şeyx Səduq, Uyunu Əxbarir-Riza, c. 1 s. 286.

2. Şeyx Tusi, Təhzibul-əhkam, c. 6, s. 108.

3. Şeyx Səduq, Mən Lə Yahzuruhul-fəqih, c. 2, s. 585.

# *İstifadə olunan mənbələr*


- Qurani-Kərim
- İbn Əsir, Mübarək ibn Mübarək, «ən-Nihayətu fi Ğəribil-Hədis" Tahir Əhməd əz-Zavinin təhqiqi ilə. Qum şəhəri, İsmailiyan nəşriyyatı, 4-cü çap.
- İbn Bəlban, Əli, "Səhih ibn Həbban bi-tərtibi İbn Həbban" Şüeyb Ərnautun təhqiqi ilə, Beyrut, Risalət müəssisəsi, 2-ci çap.
- İbn Həcər Əsqəlani Əhməd ibn Əli, «Təlxisul-Həbir fi Təxricir-Rafiil-Kəbir», Beyrut, Darul-fikr nəşriyyatı.
- İbn Həcər Əsqəlani Əhməd ibn Əli, "Təhzibut-Təhzib", Mustafa Əbdulqadir Ətanın təhqiqi ilə, Beyrut, Darul-kutubul-elmiyyə nəşriyyatı.
- İbn Həcər Əsqəlani Əhməd ibn Əli, «Lisanul-Mizan», Beyrut, Ələmi müəssisəsi, 3-cü çap.
- İbn Həcər Əsqəlani Əhməd ibn Əli, « Fəthul-Bari Şərhu Səhihil-Buxari», Əbdüləziz bin Əbdullah bin Bazın təhqiqi ilə, Beyrut, Darul-fikr nəşriyyatı.
- İbn Şəhri Aşub Mazandarani, «Mənaqibu Ali Əbi Talib», Qum, Elmiyyə nəşriyyatı.
- İbn Hilal Səqəfi, Əbi İshaq İbrahim ibn Məhəmməd ibni Səid, «əl-Ğarat», Seyyid Cəlaləddin Mühəddis Ərməvinin təhqiqi ilə, Tehran, Əncüməni Asari Milli nəşriyyatı.
- İbn Tavus Hilli, Əbulqasim Əli ibn Musa, "İqbalul-Əmal", Cavad Qəyyumi İsfəhaninin təhqiqi ilə, Qum, Məktəbul-ilamil-islami nəşriyyatı.
- İbn Əbdulbir, Yusuf ibn Abdullah, «ət-Təmhid lima fil-Muvəttə minəl-Məani vəl-Əsanid», Mustafa Ələvi və Məhəmməd Əbdulkəbir Bik-

rinin təhqiqi ilə, Ciddə, Məktəbətus-səvadi nəşriyyatı.

- İbn Əbdulbir, Yusuf ibn Abdullah, «əl-İstizkar Liməzhəbi Uləmail-Əmsar», Qahirə.
- İbn Qulivey Əbulqasim Cəfər bin Məhəmməd, «Kamiluz-ziyarət», Qum, Nəşrul-fəqahə müəssisəsi.
- İbn Macə Qəzvini Əbu Əbdullah Məhəmməd bin Yəzid, «Sünəni ibni Macə», Məhəmməd Fuad Əbdulbaqinin təhqiqi ilə, Beyrut, Darul-fikr nəşriyyatı.
- İbn Mənzur, Əbulfəzl Cəmaluddin Məhəmməd ibn Mükərrəm, «lisanul-Ərəb», Qum, Ədəbi hovze nəşriyyatı.
- Əbu Zeyd Ömər ibni Şəbbəh ən-Numeyri, «Tarixul-Mədinətil-Munəvvərə», Fəhim Məhəmməd Şəltutun təhqiqi ilə, Beyrut, Darul-turas nəşriyyatı.
- Əbuyəla, Əhməd ibn Əli, «əl-Musnəd Əbi Yəla əl-Musili», İrşadul-Haqqil-Əsərinin təhqiqi ilə, Ciddə, Darul-qiblə nəşriyyatı.
- Mühəqqiq Ərdəbili, «Məcməul-Faidəti vəl-Burhan», Qum, Cameyi Mədrəseyn Hovzeyi Elmiyyeyi Qum nəşriyyatı.
- İsfahani Əhməd bin Əbdullah, «Musnəd Əbi Hənifə», Qahirə, Məktəbətul-Adab nəşriyyatı.
- Əmini Əbdulhüseyn Əhməd, «əl-Ğədir fil-Kitab vəs-Sünnə vəl-Ədəb», Beyrut, Darul-Kitabil-Ərəbi nəşriyyatı, 3-cü çap.
- Əndəlusi Əbuömər Əhməd bin Məhəmməd bin Rabbuh, «əl-Əqdul-Fərid», Əhməduz-Zeyn və İbrahim Abyarinin təhqiqi ilə, Beyrut, Darul-Əndəlus nəşriyyatı.
- Bəhrani, Yusuf ibn Əhməd, «əl-Hədaiqun-Nazirə

fi Əhkamil-İtrətit-Tahirə», Məhəmməd Təqi İrəvaninin təhqiqi ilə,Qum, Nəşri İslami müəssisəsi.

- Bərqi, Əhməd bin Məhəmməd bin Xalid, «Ricalul-Bərqi», Tehran, Tehran universiteti.
- Bürucerdi Hüseyn, «Camiu Əhadisiş-Şiə», Qum, Elmiyyə nəşriyyatı.
- Beyhəqi, Əbubəkr Əhməd ibn Hüseyn ibni Əli, «əs-Sunənul-Kubra», Beyrut, Darul-Fikr nəşriyyatı.
- Tirmizi, Məhəmməd ibn İsa, « Sunənut-Tirmizi», «əl-Camius-Səhih», Əbdurrəhman Məhəmməd Osmanın təhqiqi ilə, Beyrut, Darul-Fikr nəşriyyatı, 2-ci çap.
- Təmimi Məğribi, Əbu Hənifə Noman bin Məhəmməd, «Dəaimul-İslam və Zikrul-Həlali vəl-Həram vəl-Qəzaya vəl-Əhkam», Asif bin Əli Əsğər Feyzi, Qum, Alul-Beyt müəssisəsi.
- Hakim Nişapuri, Məhəmməd ibn Abdullah, «əl-Mustədrək əlas-Səhiheyn», Yusuf Əbdurrəhman Mərəşlinin təhqiqi ilə, yeni çap.
- Hürr Amili Məhəmməd bin Həsən «Vəsailuş-şiə», Alul-Beyt müəssisənin təhqiqi ilə, Qum, 2-ci çap.
- Hilli, Hüseyn bin Əli bin Davud «Ricalu ibni Davud», Seyid Məhəmməd Sadiq Ali Bəhrululum, Qum, Rəzi nəşriyyatı.
- Hilli, Razyəd-Din Əli bin Yusuf, «əl-Ədədul-Qəviyyə», Məhdi Rəcainin təhqiqi ilə, Qum, Ayatullah Mərəşinin kitabxanası.
- Huveyzi, Əbduəli bin Cümə, «Nurus-Səqəleyn», Seyid Haşim Rəsuli Məhəllati, Qum, İsmailiyyan nəşriyyatı, 4-cü çap.
- Dariqutni, Əli ibn Ömər, «Sunənud-Dariqutni»,

Məhəmməd Abadinin təhqiqi ilə, Beyrut, Aləmul-kutub nəşriyyatı, 4-cü çap.

- Zəhəbi, Şəmsud-din Əbu Əbdullah Məhəmməd bin Əhməd, «Tarixul-İslam», Ömər Əbdussalam Tədmirinin təhqiqi ilə, Beyrut, Darul-kitabil-ərəbi nəşriyyatı.
- Zəhəbi, Şəmsud-din Əbu Əbdullah Məhəmməd bin Əhməd, «Mizanul-İtidal fi Nəqdir-rical», Əli Məhəmməd əl-Bəcavinin təhqiqi ilə, Beyrut, Darul-Fikr nəşriyyatı.
- Fəxr Razi, Məhəmməd ibn Ömər, «ət-Təfsirul-Kəbir», «Məfatihul-Ğeyb», Beyrut, Darul-Fikr nəşriyyatı.
- Rafii, Əbdülkərim ibn Məhəmməd, «Fəthul-Əziz Şərhul-Vəciz», Beyrut, Darul-Fikr nəşriyyatı.
- Zeyləi, Abdullah, ibn Yusuf, «Təxricul-Əhadisi vəl-Asaril-Vaqiə fi Təfsiril-Kəşşaf».
- Səbzvari, Məhəmmədbaqir, «Zəxirətul-Məad fi Şərhil-İrşad» QumAlul-Beyt li Ehyait-Turas.
- Səcistani İzdi Əbudavud Suleyman bin Əşəs, «Sünəni Əbu Davud», Səid Məhəmməd Ləhhamın təhqiqi ilə, Beyrut, Darul-Fikr nəşriyyatı.
- Süyuti Cəlaləddin Əbdurrəhman bin Əbibəkr, "əd-Dürrül-Mənsur fi Təfsiril-Məsur", Beyrut, Darul-Mərifəti lit-Tibaəti vən-Nəşr şəşriyyatı.
- Süyuti Cəlaləddin Əbdurrəhman bin Əbibəkr, "əl-Camius-Səğir fi Əhadisil-Bəşirin-Nəzir", Beyrut, Darul-Fikr nəşriyyatı.
- Şövkani, Məhəmməd ibn Əli, "Neylul-Əvtar min Əhadisi Seyyidil-Əxbar", Beyrut, Darul-Cil nəşriyyatı.
- Şövkani, Məhəmməd ibn Əli, "Fəthul-Qədirul-Cami bəynə Fənnir-Rivayəti vəd-Drayəti fi Elmit-Təfsir", Aləmul-kutub nəşriyyatı.

- İbn Hənbəl, Əhməd, “əl-Musnəd”, Beyrut, Daru Sadir nəşriyyatı.
- Salihi Şami, Məhəmməd ibn Yusuf, “Subulul-Huda vər-Rəşad”, Adil Əhməd Əbdulmövcudun təhqiqi ilə, Beyrut, Darul-kutubul-elmiyyə nəşriyyatı.
- Səduq, “Əbucəfər Məhəmməd bin Əli bin Hüseyn bin Babavey Qummi, “Savabul-Əmal və İqabul-Əmal”, Qum, Şərif Rəzi nəşriyyatı, 2-ci çap.
- Səduq, “Əbucəfər Məhəmməd bin Əli bin Hüseyn bin Babavey Qummi, “Uyunu Əxbarir-Riza”, Hüseyn Əmalinin təhqiqi ilə, Beyrut, Ələmi müəssisəsi.
- Səduq, “Əbucəfər Məhəmməd bin Əli bin Hüseyn bin Babavey Qummi, “Mən Lə Yahzuruhul-fəqih”, Əli Əkbər Ğəffarinin təhqiqi ilə, Qum, Cameyi Mədrəseyn Hovzeyi Elmiyyeyi Qum nəşriyyatı, 2-ci çap.
- Sənani, Əbubəkr Əbdurrəzzaq bin Himam, “əl-Musənnif”, Həbiburrəhman Əzəminin təhqiqi ilə, Beyrut, əl-Məclisil-elmi nəşriyyatı.
- Tavusi, Əbdülkərim ibn Əhməd, “Fərhətul-Ğura fi Təyyini Qəbri Əmirəl-möminin Əli”, Qum, Şərif Rəzi nəşriyyatı.
- Təbərani, Süleyman ibn Əhməd, “əl-Mucəmul-Əuvsat”, Darul-Hərəmeyn müəssisənin təhqiqi ilə, Qahirə, Darul-Hərəmeyn nəşriyyatı ilə.
- Təbərani, Süleyman ibn Əhməd, “əl-Mucəmul-Kəbir”, Həmdi Əbdülməcid Şələfinin təhqiqi ilə, Beyrut, Daru İhyayit-Turasul-Ərəbi nəşriyyatı.
- Təbərani, Süleyman ibn Əhməd, “Müsnəduş-Şa-

miyyin", Həmdi Əbdülməcid Sələfinin təhqiqi ilə, Beyrut, Risalət müəssisəsi, 2-ci çap.

- Təbərsi, Fəzl ibn Həsən, "Məcməul-Bəyan", Seyid Haşim Rəsuli Məhəllati və Seyid Fəzlullah Yəzdinin təhqiqi ilə, Beyrut, Darul-mərifə nəşriyyatı, 2-ci çap.
- Təbəri, Əbucəfər Məhəmməd bin Məhəmməd bin Əli, "Bişarətul-Mustafa li Şiətul-Murtaza, Nəcəfi-əşrəf, Heydəri nəşriyyatı, 2-ci çap.
- Tusi Məhəmməd bin Həsən, "Təhzibul-əhkam", Seyyid Həsən Musavinin təhqiqi ilə, Tehran, Darul-kutubul-islamiyyə nəşriyyatı, 3-cü çap.
- Tusi Məhəmməd bin Həsən, "İxtiyaru Mərifətur-rical", Mir Damad Astarabadinin təhqiqi ilə, Qum, Alul-Beyt müəssisəsi.
- Tusi Məhəmməd bin Həsən, "Rical Tusi", Cavad Qayyumi İsfahaninin təhqiqi ilə, Qum, Nəşri İslami nəşriyyatı.
- Tusi Məhəmməd bin Həsən, "İddətul-usul", Məhəmməd Məhdi Nəcəfin təhqiqi ilə, Qum, Alul-Beyt nəşriyyatı.
- Amili Məhəmməd bin Məkki, "Əd-Durusuş-şəriyyə fi Fiqhil-İmamiyyə", Nəşri İslami müəssisəsi, Qum,
- Əbdullah bin Udey, "əl-Kamil", Yahya Muxtar Ğəzavi, Beyrut, Darul-Fikr, 3-cü çap.
- Əcluni, İsmail ibn Məhəmməd, "Kəşful-Xəfa", Beyrut, Darul-kutubul-elmiyyə nəşriyyatı, 2-ci çap.
- Eyni Hənəfi Əbu Məhəmməd Bədriddin əhməd, "Umdatul-qari Şərhul-Buxari", Misir, Darut-tibaətil-munirə nəşriyyatı.
- Fəttal Nişapuri,Məhəmməd bin Həsən, "Rovzatul-vaizin", Məhəmməd Məhdi Xorasaninin

təhqiqi ilə,Qum, Şərif Rəzi nəşriyyatı.

- Quşeyri Nişapuri, Əbulhüseyn Muslim bin Həccac, “Səhih muslim”, Beyrut, Darul-Fikr nəşriyyatı.
- Kuleyni Məhəmməd bin Yaqub, “ƏL-Kafi”, Əlio Əkbər Ğəffarinin təhqiqi ilə, Tehran, Darul-kutubul-islamiyyə nəşriyyatı, 2-ci çap.
- Kəni, Mövla Əli, “Tozihul-məqal fi elmir-rical”, Tehran.
- Mamaqani, Əbdullah bin Məhəmməd Həsən, “Məqbasul-Hidayətu fi Elmid-Dirayə”, Qum, Alul-Beyt li Ehyayit-Turas müəssisəsi.
- Mubarəkfuri, “Tuhfətul-Əhvazi”, Beyrut. Darul-kutubl-elmiyyə nəşriyyatı.
- Məclisi Məhəmməd bin Məhəmməd Təqi, “Biharul-ənvar”, Tehran, Darul-kutubul-islamiyyə nəşriyyatı.
- Mufid, Məhəmməd bin Məhəmməd bin Noman, “ əl-Məzar”, Məhəmməd Baqir Əbtəhinin təhqiqi ilə, Qum.
- Mufid, Məhəmməd bin Məhəmməd bin Noman, «əl-Muqənniə», Qum, Besət nəşriyyatı.
- Məqrizi, Təqiyəd-din Əhməd bin Əli, «İmtaul-Əsma fima linnəbiyyi minəl-Həfədəti vəl-Məta»
- Məmduh, Məhmud Səid, «Rəful-Mənarəh li təxrici Əhadisit-təvəssül vəz-Ziyarə», Darul-İmamun-Nəvəvi nəşriyyatı.
- Nəcaşi, «Fehresti Əsmau Müsənnəfiş-şiə» Qum, Nəşri İslami nəşriyyatı, 5-ci çap.
- Nəcəfi, Məhəmmədhəsən, «Cəvahirul-Kəlam», Beyrut, əl-Murtəzal-Aləmiyyə nəşriyyatı.
- Nəraqi, Əhməd bin Məhəmməd Məhdi,

«Müstənəduş-Şiə fi Əhkamiş-şəriə», Alul-Beyt li Əhyayit-Turas müəssisəsi.

- Nəraqi, Məhəmməd Məhdi bin Əuzər, «Cami-us-Sadat», Məhəmməd Kəlantərin təhqiqi ilə, Darun-Noman nəşriyyatı.
- Nisai, Əhməd ibn Şüeyb, «əs-Sünənil-Kubra», Beyrut, Darul-Fikr nəşriyyatı.
- Nuri, Mirzə Hüseyn, «Müstədrəkul-Vəsail və Müstənbətul-Məsail», Alul-Beyt müəssisəsi, Qum.
- Vaqidi, Məhəmməd ibn Səd, «ət-Təbəqatul-Kubra», Beyrut, Daru Sadir.
- Hərəvi, Qasim ibn Salam, «Ğəribul-Hədis", Beyrut, Darul-kutubul-elmiyyə nəşriyyatı.
- Həmədani, Məhəmməd Rza bin məhəmməd Hadi, «Misbahul-Fəqih».
- Müttəqi Hindi, «Kənzul-əmmal», Şeyx Səffatus-siqanın təhqiqi ilə, Beyrut, Risalət nəşriyyatı.
- Heysəmi Nuruddin Əli bin Əbibəkr, «Məcməuz-Zəvaid və Mənbəul-Fəvaid», Beyrut, Darul-kutubul-elmiyyə.
- Yaqut Həməvi, Əbu Əbdullah Şəhabuddin, «Mucəmul-Bildan», Beyrut, Daru Ehyayit-Turasul-ərəbi.